AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

31 MART 2019-cu il BAZAR № 68 (6395) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyevin Avstriyaya işgüzar səfəri başa çatıb

Xüsusi müxbirimiz xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avstriya Respublikasına işgüzar səfəri martın 30-da başa çatıb.

**AZƏRTAC**

*Prezident Aleksander Van der Bellen:*

## Azərbaycan Avstriyanın Cənubi Qafqazda ən vacib ticarət tərəfdaşıdır

**Azərbaycan Avstriyanın Cənubi Qafqazda ən vacib ticarət tərəfdaşıdır. Prezident İlham Əliyev və mən məhsuldar görüşümüzü bu yaxşı bünövrənin üzərində qurduq.**




AZƏRTAC xəbər verir ki, bu sözləri Avstriyanın Federal Prezidenti Aleksander Van der Bellen martın 29-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə keçirilən görüşü ilə bağlı öz "Twitter" səhifəsində yazıb. Qeyd edib ki, bu tərəfdaşlıqla yanaşı, həmçinin ölkələrimizin universitetləri arasında çoxsaylı uğurlu əməkdaşlıq əlaqələri mövcuddur.

Prezident Aleksander Van der Bellen, həmçinin qeyd edib ki, Avstriya və Vyana Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında gələcək danışıqlara ev sahibliyi etməyə hazırdır.

**AZƏRTAC**

## Ukrayna portalı AZƏRTAC-ın müxbirinin Azərbaycan Prezidenti ilə Ermənistan rəhbərliyinin görüşü barədə məqaləsini yayıb

**AZƏRTAC-ın Ukrayna, Belarus və Moldova üzrə xüsusi müxbiri Emil Hüseynlinin Ukraynanın "FAKT" portalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Vyanada keçirilən görüş barədə məqaləsi dərc edilib.**




Məqalədə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrləri ilə birgə bəyanatındakı, həmçinin Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin görüşün nəticələrinə dair şərhindəki müəyyən fikirlər yer alıb.

Müəllif ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında görüşün normal və konstruktiv şəraitdə keçdiyini ukraynalı oxucuların diqqətinə çatdırıb. Məqalədə qeyd edilib ki, uzun fasilədən sonra Azərbaycan Prezidenti ilə Ermənistan rəhbərliyi arasında ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə görüş təşkil olunub. Bu, danışıqların formatının dəyişməz olaraq qaldığını və danışıqlar prosesinin Azərbaycan ilə Ermənistan arasında aparıldığını bir daha təsdiqləyir.

Atəşkəsin möhkəmləndirilməsi məsələsi substantiv danışıqların aparılması prosesi ilə paralel istiqamətlərdir və bir-birini tamamlamalıdır.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti hər bir problemə münasibətdə konseptual yanaşma nümayiş etdirir

**Azərbaycan dövləti həmişə öz vətəndaşlarının yanındadır. Bakının Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş verən yanğın nəticəsində zərər çəkmiş sahibkarlara münasibətdə bunun bir daha şahidi olduq.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hadisəyə dərhal redaksiya verdi və bununla bağlı operativ müşavirə keçirdi. Dövlətimizin başçısı yanğının səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması, həmçinin zərərçəkən sahibkarlara dövlət dəstəyi göstərilməsi barədə tapşırıqlar verdi. Növbəti addım olaraq Prezident ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar komissiyanın yaradılması haqqında Sərəncam imzaladı. Bunun ardınca dövlətimizin başçısı yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ilkin olaraq 3 milyon manat vəsait ayırdı. Zərər çəkmiş sahibkarlara aprelin ilk həftəsindən etibarən maddi yardım göstəriləcək. Bundan başqa, onlara uzunmüddətli güzəştli kreditlər veriləcək, sahibkarlar istəklərinə uyğun olaraq digər ticarət mərkəzlərində yerləşdiriləcəklər.

Prezidentin tapşırığına uyğun olaraq Nazirlər Kabineti Baş nazirin birinci müavini Yaqub Eyyubovun sədrliyi ilə komissiya yaradıb. Komissiyanın tərkibinə fövqəladə hallar, maliyyə, iqtisadiyyat, vergilər, daxili işlər, energetika nazirləri, Baş prokuror, Dövlət Gömrük Komitəsinin sədri, Bakı Şəhər İcra Hakimiyyətinin və Nizami Rayon İcra Hakimiyyətinin başçıları daxildir. Komissiya hadisənin başvermə səbəblərini və hadisə nəticəsində dəymiş maddi ziyanı tam araşdırıb yekun rəyi Nazirlər Kabinetinə təqdim edəcək.

Qeyd edək ki, dünyanın heç bir ölkəsində dövlət zəlzələlər, daşqınlar, yanğınlar nəticəsində vətəndaşların mülkiyyətinə dəyən ziyanın ödənilməsini öz üzərinə götürmür. Bu baxımdan, Azərbaycanda dövlətin belə hadisələrdən ziyan çəkən insanlara verdiyi dəstəyin ardıcıl xarakter daşıması nadir sosial hadisədir. Prezident İlham Əliyev keçirdiyi müşavirədə yaranmış problemə münasibətdə yenə də konseptual yanaşma nümayiş etdirdi. Dövlətimizin başçısı vurğuladı ki, yanğından ziyan çəkən sahibkarlar öz iş yerlərini, əmlaklarını itiriblər, onlara maddi ziyan dəyib. Prezident tapşırıq verdi ki, ticarət mərkəzində çalışan sahibkarların hər biri ilə fərdi qaydada görüş keçirilsin, problemləri dinlənilsin və onlara lazımi dəstək göstərilsin. Bu fərdi yanaşma Azərbaycan Prezidentinin insan amilinə nə qədər böyük önəm verdiyini nümayiş etdirir. Bu yanaşma kütləvi deyil, konkret şəxslərə və onların hər birinin ayrı-ayrılıqda fərqli olan problemlərinin həllinə yönələn yanaşmadır.

Müşavirədəki çıxışında dövlətimizin başçısı Azərbaycanda sahibkarlar sinfinin yarandığını vurğulayaraq bildirdi ki, ölkənin uzunmüddətli, dayanıqlı inkişafı sahibkarların fəaliyyəti ilə böyük dərəcədə bağlıdır. Dövlətin ağır günlərdə, bədbəxt hadisə baş verdikdə hər zaman sahibkarların yanında olması iş adamları üçün böyük stimuldur. Bu, həm də Prezidentin ölkə iqtisadiyyatının şaxələndirilməsi və iqtisadi inkişafla bağlı strateji hədəflərini nümayiş etdirir. Eyni zamanda, Prezident İlham Əliyev bütün ticarət mərkəzlərində ciddi təftiş işlərinin aparılması, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi barədə də tapşırıqlar verib. Artıq bu istiqamətdə də tədbirlərin görülməsinə başlanılıb.

**AZƏRTAC**

# Vyana görüşü substantiv və konkret nəticələrə yönələn danışıqlar prosesinin vacibliyini bir daha nümayiş etdirdi

**Avstriya tarixən beynəlxalq aləmdə diplomatik danışıqlar və görüşlərin keçirildiyi əsas məkanlardan biri kimi tanınır. Vyana Konqresindən (1814-1815) başlayan bu ənənə müasir dövrümüzədək davam etməkdədir və bir sıra mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən Vyana şəhərində münaqişə, siyasi böhran və beynəlxalq məsələlərlə bağlı tez-tez toplantılar keçirilir.**



Bu baxımdan martın 29-da Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında görüşün məhz Vyanada keçirilməsi də təsadüfi sayılmamalıdır. Azərbaycanı Cənubi Qafqazda Avstriyanın ən vacib ticari tərəfdaşı kimi dəyərləndirən Avstriyanın Federal Prezidenti Aleksander Van der Bellen də danışıqlar prosesinə töhfə verməyə maraqlı olduqlarını qeyd edib. O, öz "Twitter" səhifəsində ölkəsi və paytaxt Vyananın Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında gələcək danışıqlara ev sahibliyi etməyə hazır olduğunu bildirib.

Xüsusən vurğulanmalıdır ki, Vyanada Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında keçirilən görüş ölkəmizin növbəti diplomatik uğurudur. Görüş və dövlətimizin başçısının Avstriyaya işgüzar səfəri bir neçə məqamı ilə diqqəti çəkir. İlk növbədə, bu görüş Ermənistanın yeni siyasi rəhbərliyi hakimiyyətə gəldikdən sonra dövlət rəhbərləri arasında ilk rəsmi görüş idi. Bu görüşün iki dövlətin rəhbərləri arasında keçirilməsi bir daha təsdiq etdi ki, danışıqlar məhz Azərbaycan Respublikası və Ermənistan arasında aparılır və danışıqların formatı dəyişməz qalır.

Digər tərəfdən isə bu görüş uzun müddətdən bəri ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında baş tutan ilk görüş idi. Ermənistanda siyasi dəyişikliklər fonunda qarşı tərəf danışıqların formatının dəyişdirilməsi ilə bağlı müxtəlif iddialar irəli sürürdü. Yerevanın səsləndirdiyi və formatla bağlı verdiyi bəyanatlardan belə bir qənaətə gəlmək olurdu ki, ermənilər əvvəlki siyasətlərinə uyğun olaraq, Dağlıq Qarabağdakı qeyri-qanuni rejimi leqallaşdırmağa və eyni zamanda, nizamlanmanın məğzini təşkil edın məsələlərin müzakirəsindən yayınmağa çalışırlar. Lakin martın 9-da ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanatla çıxış edərək formatın dəyişdirilməsinin qəbuledilməzliyini bildirdilər. Azərbaycan tərəfi də öz növbəsində, dəfələrlə formatın dəyişilməzliyini vurğuladı.

Qeyd edilməlidir ki, Vyanada dövlətimizin başçısı və Ermənistanın baş naziri arasındakı təkbətək görüş iki saatdan çox çəkdi. Daha sonra görüşə həmsədrlər və hər iki ölkənin xarici işlər nazirləri də qatıldı, ümumilikdə üç saatdan artıq müddətdə danışıqlar aparıldı.

Görüşdən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri və həmsədrlər tərəfindən birgə beştərəfli bəyanat verildi. Eyni zamanda, bu bəyanatın hər iki ölkənin xarici işlər nazirlərinin də adından verilməsi bu münaqişədə yalnız iki tərəfin mövcud olduğunu bir daha bariz şəkildə təsdiqlədi.

Birgə bəyanat Vyana görüşünün substantiv xarakter daşıdığını və əhatəli olduğunu göstərir. Ermənistanda parlament seçkilərindən sonra eyforiyada olan ölkə rəhbərliyi işğal altındakı Azərbaycan torpaqlarında yaratdıqları qondarma rejimi hər bir vəchlə leqallaşdırmaq üçün formatın dəyişdirilməsi istəyini açıq-aydın büruzə verirdi. Birgə bəyanat, ilk növbədə, Ermənistan tərəfinin son dövrdə danışıqların formatının dəyişdirilməli olduğuna, bunun baş vermədiyi müddətdə münaqişənin mahiyyəti üzrə danışıq apara bilməyəcəklərinə dair verdikləri bəyanatların iflasa uğradığına dəlalət edir. Vyana görüşü bu istəyin əsassız olduğunu və onun reallaşdırılmasının mümkün olmadığını Ermənistan tərəfinə nümayiş etdirdi. Prezident İlham Əliyev də görüşdən sonra verdiyi açıqlama bildirdi ki, danışıqlar formatı dəyişməz qalır.

**(davamı 2-ci səhifədə)**

# Vyana görüşü substantiv və konkret nəticələrə yönələn danışıqlar prosesinin vacibliyini bir daha nümayiş etdirdi

(əvvəli 1-ci səhifədə)

Birgə bəyanatda aydın şəkildə vurğulanır ki, iki ölkənin lideri nizamlanma prosesinin əsas məsələləri və mahiyyəti barədə ideyalara dair fikir mübadiləsi aparıblar. Həmçinin onlar münaqişənin həllinə nail olmaq üçün konkret addımların atılmasının vacibliyini vurğulayıblar ki, bu da məhz Azərbaycan tərəfinin hər dəfə israr etdiyi məsələdir. Təsadüfi deyil ki, görüşün yekunlarını şərh edərkən Azərbaycan Prezidenti danışıqların məhz nəticəyönümlü olmasının zəruriliyini vurğulayıb.

Bəyanatda iki ölkə liderinin öz xarici işlər nazirlərini danışıqları davam etdirməyə dair təlimatlandırdığı və həmçinin öz aralarında birbaşa dialoqu davam etdirəcəkləri əksini tapır. Bu da o deməkdir ki, danışıqların dondurulması üçün Ermənistan tərəfinin irəli sürdüyü müxtəlif bəhanələr iflasa uğrayıb, bu ölkənin rəhbərliyi danışıqların məhz hazırkı formatda davam etdirilməli olduğunu qəbul etməyə məcbur olub. Bu kontekstdə Azərbaycan Prezidentinin Vyana görüşünün danışıqlar prosesi üçün yeni impuls olduğuna dair fikirləri xüsusilə vurğulanmalıdır.

Eyni məsələnin birgə bəyanatda da əksini tapması Azərbaycan tərəfinin öz mövqeyini prosesin digər iştirakçılarına qəbul etdirdiyinin göstəricisi kimi qiymətləndirilə bilər. Bəyanatda diqqət çəkən digər bir məqam münaqişə tərəfləri arasında humanitar xarakterli addımların atılmalı olduğunun qeyd edilməsidir. Məlum olduğu kimi, bu məsələ, xüsusilə əsir və girov götürülmüş şəxslərin "hamının hamıya" prinsipi ilə mübadiləsi, itkin düşmüş şəxslərə dair məlumatların mübadilə edilməsi də məhz davamlı olaraq Azərbaycan tərəfinin qaldırdığı məsələdir. Bu, ehtimal etməyə əsas verir ki, girov götürülmüş azərbaycanlı mülki şəxslərin qaytarılması məsələsi bu dəfə də Azərbaycan tərəfindən prinsipial olaraq qoyulub və bu istiqamətdə addımların atılmalı olduğu həmsədr ölkələr tərəfindən qəbul edilib.

Azərbaycan Prezidenti görüş barədə danışarkən vurğuladı ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yeni start verdiyinə görə, bu görüş mühüm əhəmiyyət kəsb edir. Danışıqlar formatının dəyişdirilməsini rədd edən Azərbaycan tərəfi substantiv və konkret nəticələrə yönələn danışıqlar prosesinin davam etdirilməsinə tərəfdardır: "Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur".

Buradan görünür ki, danışıqlar prosesinin mahiyyətinə gəldikdə, Azərbaycan Respublikasının mövqeyi bəllidir və birmənalı xarakter daşıyır. Mövqeyimizi əsasən Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in müvafiq qətnamələri və sənədləri təşkil edir və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan qoşunları işğal olunmuş ərazilərdən çıxarılmalı və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır.

Beştərəfli formatda yayılmış bəyanatdan belə bir qənaətə gəlmək olur ki, tərəflər, həmçinin nizamlanma prosesinin əsas məsələləri və mahiyyətini təşkil edən ideyalar ətrafında da müzakirələr aparıblar. Bununla bağlı qeyd olunmalıdır ki, Azərbaycan münaqişənin nizamlanmasında ən maraqlı tərəfdir və buna görə də məhz nəticəyə yönəlmiş məsələlərin müzakirəsinin vacibliyini vurğulayır. Bu mənada Prezident İlham Əliyevin TASS informasiya agentliyinə müsahibəsinə bir daha müraciət etmək lazım gəlir. Belə ki, dövlətimizin başçısı bildirdi ki, danışıqlar nəticəyə yönəlməlidir. Azərbaycan üçün bu, ilk növbədə, beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğaldan azad edilməsidir. Başqa sözlə, əvvəlki tanışlıq görüşlərindən fərqli olaraq, bu dəfə iki dövlət başçısı münaqişənin birbaşa nizamlanmasına aid olan məsələləri ilk dəfə ətraflı müzakirə etdikləri qənaətinə gəlmək olur.

Beştərəfli bəyanatda diqqəti çəkən digər bir məqam isə iki dövlət rəhbərinin sülhə şərait yaradan ab-havanın yaradılmasının və münaqişənin nizamlanması üçün ciddi və konkret addımların atılmasının vacibliyini qeyd etməsidir. Bununla bağlı xatırlatmaq yerinə düşər ki, Ermənistanın bir sıra ayrı-ayrı rəsmilərinin Azərbaycanın işğal altında saxladıqları torpaqlarının bir qarışının da qaytarmayacaqları barədə bəyanatları sülh ab-havasını yaratmır. Azərbaycan XİN bu səpkili bəyanatların danışıqlara və sülh prosesinə zərbə vurduğunu dəfələrlə qeyd edib. Vyana görüşündə beştərəfli formatda sülh ab-havasının yaradılmasının vacibliyinin bildirilməsi Ermənistan tərəfini bundan sonra öz bəyanatlarında ehtiyatlı olmağa vadar edə bilər.

Bu mənada, Vyana görüşü təsdiqlədi ki, danışıqların əsas məqsədi münaqişənin həll edilməsindən ibarət olmalı və nizamlanma Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və məcburi köçkünlərin geri qayıtması ilə nəticələnməlidir. Azərbaycan milli maraqlarından irəli gələn prinsipial, qətiyyətli və ədalətli mövqeyi üzərində möhkəm dayanaraq onu uğurla müdafiə edir.

Görüşün Aprel döyüşlərinin ildönümü ərəfəsində baş tutması Ermənistanın yeni rəhbərliyi üçün mesaj kimi də dəyərləndirilə bilər. Aprel döyüşləri danışıqların nəticə verməyəcəyi təqdirdə Azərbaycan əsgərinin öz torpağını düşmən tapdağından azad etməyə hər an hazır olduğunun bariz nümunəsidir.

Yekunda bir məqamı da xatırlatmaq yerinə düşərdi ki, uzun fasilədən sonra iki ölkə rəhbərinin ilk rəsmi görüşünün məhz Vyanada keçirilməsi rəmzi xarakter daşıyır. Məlum olduğu kimi, münaqişənin həllinə dair BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə danışıqlar prosesində vasitəçilik üçün mandat verilmiş ATƏT-in mənzil-qərargahı bu şəhərdə yerləşir. Bu xüsusda görüşün Vyanada təşkili danışıqların məhz ATƏT-in Minsk qrupu çərçivəsində aparıldığına və aparılacağına dair ictimai mesaj kimi qəbul edilə bilər. Bu isə o deməkdir ki, müxtəlif spekulyasiyalara baxmayaraq, danışıqların əsasını məhz BMT və ATƏT-in məlum qərar və sənədləri təşkil edir, münaqişənin yekun həlli də bu qərar və sənədlərdə əks olunmuş norma, prinsip və elementlər əsasında mümkündür. Bu sırada BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi, ATƏT-in Helsinki Yekun Aktı, münaqişənin həllinin formatı və prinsipial çərçivəni müəyyən edən 1992-ci il Helsinki, 1994-cü il Budapeşt və 1996-cı il Lissabon sammitlərinin qərar və sənədləri xüsusilə vurğulanmalıdır.

* * *

Prezident İlham Əliyevin Avstriyaya işgüzar səfəri, həmçinin Azərbaycan və Avstriya arasında ikitərəfli münasibətlərin inkişafı üçün mühüm əhəmiyyətə malikdir. Səfər çərçivəsində dövlət başçısı Avstriyanın Federal kansleri, Avstriyanın Federal Prezidenti və vitse-kansleri ilə görüşlər keçirdi. İki ölkənin təşəbbüsü ilə Birgə Əməkdaşlıq Şurası adlı yeni bir əməkdaşlıq formatı yaradıldı ki, bu format hökumət və işgüzar dairələrin təmsilçilərindən ibarət olmaqla, gələcək qarşılıqlı maraq doğuran iqtisadi layihələrin həyata keçirilməsində yeni platformaya çevriləcək. Şuranın Məşvərət Heyətində hər iki tərəfin nazirlərinin təmsil olunması yeni təsis edilən quruma göstərilən maraq və siyasi dəstəyin bariz nümunəsidir. Məşvərət Heyətinin ilk iclasında Avstriyanın Azərbaycanla iqtisadi əlaqələrin dərinləşdirilməsində maraqlı olduğu vurğulanıb, Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməkdə olan Azərbaycanın Avropa və Uzaq Şərq arasında iqtisadi əlaqələrin inkişafında Avstriya şirkətləri üçün mühüm əhəmiyyət daşıdığı qeyd edilib. Azərbaycanın regionda yaratdığı infrastruktur imkanları Avstriya şirkətlərinin yeni bazarlara çıxışı üçün əlverişli imkanlar yaradır ki, Avstriya tərəfi bu imkandan da yararlanmaqda maraqlıdır.

**AZƏRTAC**

# "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Baş nazirin Sərəncamı ilə komissiya yaradılıb

**"Bakı şəhərinin Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar komissiyanın yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 mart tarixli Sərəncamına əsasən Nazirlər Kabineti komissiya yaradıb.**

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədovun imzaladığı Sərəncamla Baş nazirin birinci müavini Yaqub Eyyubovun sədrlik etdiyi komissiyanın tərkibinə fövqəladə hallar, maliyyə, iqtisadiyyat, vergilər, daxili işlər, energetika nazirləri, Baş prokuror, Dövlət Gömrük Komitəsinin sədri, Bakı Şəhər İcra Hakimiyyətinin, Nizami Rayon İcra Hakimiyyətinin başçıları daxildir.

Komissiyaya tapşırılıb ki, hadisənin başvermə səbəblərini və hadisə nəticəsində dəymiş maddi ziyanı tam araşdırıb yekun rəyi Nazirlər Kabinetinə təqdim etsin.

**AZƏRTAC**

# BMT-nin baş katibi Azərbaycan və Ermənistan liderlərinin görüşünü alqışlayıb

**BMT-nin baş katibi Antonio Quterreş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında martın 29-da Vyanada ATƏT-in Minsk qrupu çərçivəsində keçirilən ilk görüşü alqışladığını bəyan edib.**

AZƏRTAC BMT-nin rəsmi saytına istinadla xəbər verir ki, təşkilatın baş katibi iki ölkənin rəhbərlərinin əsas diqqəti sülhə və danışıqlar prosesində irəliləyişə kömək edən şəraitin yaradılmasına yönəltdiklərini qeyd edib. A.Quterreş, həmçinin onların atəşkəs rejiminin möhkəmləndirilməsinə və humanitar məsələlərin həllinə, habelə münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində dialoqun davam etdirilməsinə sadiq qalmalarını alqışlayıb.

Baş katib ATƏT-in Minsk Qrupu həmsədrlərinin mühüm vasitəçilik rolunu yüksək qiymətləndirib və BMT-nin onların davamlı səylərinə tam dəstəyini yenidən bəyan edib.

**AZƏRTAC**

# Nazirlər Kabinetinin illik hesabatı: sistemli və ardıcıl fəaliyyətin töhfələri

***Baş nazir Novruz Məmmədov parlamentdə Nazirlər Kabinetinin 2018-ci ildəki fəaliyyətinə dair hesabatla çıxış edib. Milli Məclisin deputatları hesabatı maraqla qarşılayıblar. Baş nazir sistemli və təhlili yanaşaraq hökumətin keçən ilki fəaliyyətini geniş şərh edib. Hesabatdan belə qənaət əldə edilir ki, ötən il hökumət öz fəaliyyətini ölkənin strateji inkişaf kursuna uyğun aparıb. Bunun fonunda Prezidentin qarşıya qoyduğu vəzifələri tam olaraq həyata keçirməyə çalışıb. Nəticədə, bütün sahələr üzrə uğurlu nəticələr əldə edilib. Baş nazirin məruzəsinin analizi göstərir ki, Azərbaycan 2018-ci ildə mühüm uğurlar qazanıb. Onların geniş təhlili üzərində dayanmağa ehtiyac görürük.***



## İctimai-siyasi və sosial-iqtisadi həyat: Baş nazirin müasir yanaşması

Ekspertlər Azərbaycan hökumətinin 2018-ci ildə fəaliyyətinə dair illik hesabatı maraqla gözləyirdilər. Həm yeni Baş nazirin Milli Məclisdəki məruzəsi, həm də ziddiyyətlərlə dolu olmuş keçən ildə Azərbaycanın əldə etdiyi nailiyyətlərin konkret rəqəmlərdə ifadəsi maraq doğururdu. Öncədən deyək ki, bu sanballı hesabatda ölkə rəhbərliyinin həyata keçirdiyi siyasi kursun ümumi ruhu ilə yanaşı, reallaşan proqramların analizi və konkret nəticələr lakonik və dolğun ifadə edilib.

Baş nazir Novruz Məmmədov ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatını bir-biri ilə sıx bağlılıqda təqdim etməklə hesabat ilində məsələyə sistemli yanaşmanın mövcud olduğunu nümayiş etdirib. Novruz Məmmədov məruzəsində bu bağlılıqda vurğulayıb: "2018-ci il Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatında böyük nailiyyətlərlə, əlamətdar tarixi hadisələrlə zəngin olmuşdur. Ötən il Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi təntənə ilə qeyd edilmişdir. Aprel ayında keçirilən növbəti prezident seçkilərində müdrik xalqımız ən düzgün seçimini edərək, İlham Əliyevi yenidən dövlət başçısı seçmişdir. Bu seçimi ilə Azərbaycan Respublikasının vətəndaşları milli maraqlara uyğun aparılan siyasət nəticəsində ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyi, dayanıqlı və dinamik inkişafı, xalq-iqtidar birliyini dəstəklədiyini növbəti dəfə nümayiş etdirmişlər. Prezident seçkilərindən sonra dövlət başçısı hökumətin yeni tərkibini müəyyənləşdirmiş, qarşıda duran strateji vəzifələri və hədəfləri bəyan etmişdir".

Bizcə, bu fikirlərdə hökumətin öz fəaliyyətinə məsuliyyətli və hərtərəfli yanaşması yığcam şəkildə ifadə edilib. Bu yanaşmanın mənbəyini isə Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasətin məzmunu təşkil edir. Baş nazir ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında açar rolunu oynayan hadisələri dəqiq ifadə edib. İlk olaraq, Baş nazir ölkənin ictimai-siyasi həyatında əsas hadisələr kimi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini və prezident seçkilərini göstərməklə 2018-ci ildə dövlətçilik ənənəsi ilə müasir idarəetmə arasında məntiqi bağlılığı ifadə edib. Keçən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənə ilə qeyd edən xalqımız, eyni əminlik, sədaqət və iradə ilə İlham Əliyevə səs verdi. Yəni Azərbaycan xalqı 2018-ci ildə bir daha tarixi seçimini hansı meyarlar əsasında etdiyini bütün dünyaya göstərdi. Bu məqam 2018-ci ildə ictimai-siyasi və sosial-iqtisadi uğurların təməlində durur.

Bu sırada Baş nazir dövlətimizin başçısının Azərbaycan hökumətinin yeni tərkibini müəyyənləşdirməsinin xüsusi əhəmiyyətini vurğulayıb. Konkret ifadə etsək, Azərbaycanda bütün sahələrdə fəaliyyət tam olaraq hüquqi təmələ dayanır. Prezident İlham Əliyev nəzərdə tutduğu proqramları reallaşdıra biləcək hökuməti formalaşdırmağa nail olub. Məruzənin sonrakı hissələrində bu cür yanaşmanın verdiyi töhfələr konkret faktlarla və sistemli olaraq təqdim edilir. Bunun üçün Nazirlər Kabinetinin öz fəaliyyətini Prezidentin müəyyən etdiyi strateji vəzifələr və hədəflər əsasında qurduğu ifadə edilib. Məsələnin başqa vacib aspekti "...yeni dövrün çağırışlarına cavab verən praqmatik xarici siyasət, beynəlxalq münasibətlər sistemindəki mövcud gərginliklərə baxmayaraq, dövlətimizin nüfuzunun daha da yüksəlməsinə və Azərbaycanı dəstəkləyən ölkələrin sayının artmasına zəmin yaradılması" ilə bağlıdır. Burada Baş nazir ölkənin daxili və xarici siyasəti arasında sıx bağlılığın 2018-ci ildə də xüsusi məzmunda davam etdiyini önə çəkib. Müasir demokratik idarəetmə baxımından bu, heç şübhəsiz, mühüm müddəadır.

Bu baxımdan Novruz Məmmədovun hesabat ilində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan addımlara, ikitərəfli və çoxtərəfli formatlarda qəbul edilən sənədlərdə dövlətimizin suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək ifadə edilməsinə, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" adlı sənədə diqqət yönəldərək, onları "düşünülmüş sistemli fəaliyyətin əsas tərkib hissələrindən biri kimi" qiymətləndirməsi çox əhəmiyyətlidir.

## Prezident tapşırıqları və hökumətin fəallığı: faktların dili ilə

Fikirlərinə davam edərək, Novruz Məmmədov 2018-ci ilin may ayında Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə reallaşan Cənub Qaz Dəhlizinin açılışının, Türkiyədə dövlət başçılarının iştirakı ilə nəhəng TANAP layihəsinin rəsmi açılış mərasiminin keçirilməsinin, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsinin enerji təhlükəsizliyi və geosiyasi, geoiqtisadi mənzərə üçün əhəmiyyətini vurğulamaqda tam haqlıdır. Çünki bu faktlar həm geosiyasi dinamikada Azərbaycanın fəallığını, həm də ölkənin regional əməkdaşlıqda tam səmimiyyətini əks etdirir.

Dövlət başçısının reallaşdırdığı bu cür əhəmiyyətli siyasətə Nazirlər Kabineti də imkanları daxilində ciddi dəstək verib və qarşısına qoyulan vəzifələrin öhdəsindən gəlməyə çalışıb. Bu fəaliyyətə ən düzgün və obyektiv qiyməti Prezident İlham Əliyev Nazirlər Kabinetinin keçən ilin yekunlarına dair iclasındakı nitqində verib. Dövlət başçısı "hökumətin fəaliyyətini dərindən və hərtərəfli təhlil edərək, əldə olunan nəticələri yüksək qiymətləndirmiş, 2018-ci ilin dərin iqtisadi islahatlar ili olduğunu bildirmişdir".

Baş nazir bunları konkret faktlar əsasında göstərib. Məsələn, 2018-ci ildə makroiqtisadi sabitlik təmin olunub və iqtisadi artım 1,4 faiz təşkil edib. O cümlədən qeyri-neft sektorunda artım 1,8 faiz olub. "Əsas kapitala yönəldilmiş 17,2 milyard manat vəsaitin 11 milyard manatdan çoxu və ya 65,5 faizi qeyri-neft sektorunun payına düşüb". Novruz Məmmədov bu bağlılıqda xüsusi vurğulayıb ki, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin 69,7 faizini daxili sərmayələr təşkil edib. Bu, gənc müstəqil dövlət üçün ciddi uğurdur. Konkret olaraq o deməkdir ki, Azərbaycan artıq daxili potensial hesabına inkişaf prosesini daha da gücləndirib. Bu, Cənubi Qafqaz üçün bir nümunədir.

Bundan başqa, 2018-ci ildə inflyasiya cəmi 2,3 faiz olub. Bunun fonunda əhalinin gəlirləri nominal ifadədə 9,2 faiz artıb. Azərbaycanın valyuta ehtiyatları isə artaraq 45 milyard ABŞ dolları olub. "Ötən il icmal büdcənin gəlirləri 31,4 milyard manat, xərcləri isə 26,3 milyard manat olmuş və ümumi daxili məhsula nisbətdə 6,4 faiz büdcə artıqlığı (profisit) əldə edilmişdir".

Fikirlərini inkişaf etdirərək Baş nazir ifadə edib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı sosial-iqtisadi siyasətin mahiyyətində əhalinin aztəminatlı təbəqəsinin rifahının davamlı olaraq yüksəldilməsinin dayandığı hamıya məlumdur. Bu məsələyə hesabat ilində də xüsusi önəm verilmişdir. Dövlət büdcəsinin xərclərinin 31,7 faizi və ya 7,2 milyard manatı sosialyönümlü xərclərin payına düşmüşdür ki, bu da 2017-ci illə müqayisədə 7,6 faiz çoxdur". Bu, Azərbaycanın sosialyönümlü bir dövlət olduğunu təsdiq edən çox maraqlı və aktual qənaətdir. Təsadüfi deyildir ki, Azərbaycanın inkişaf strategiyasında insan kapitalı mühüm yer tutur. Bu baxımdan Baş nazirin konkret faktlarla cəmiyyətin aztəminatlı kəsminin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımları göstərməsi təqdirəlayiq sayılmalıdır.

Bu kontekstdə Novruz Məmmədov qeyd edib ki, əmək pensiyalarının artırılması 1,2 milyon pensiyaçını əhatə edib. "Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 6,2 faiz, yaşa görə pensiyanın orta aylıq məbləği isə 6,7 faiz artmışdır". Xüsusi proqramın həyata keçirilməsi ilə 5 mindən çox ailənin və ya 25 min nəfərə yaxın insanın maddi vəziyyəti yüksəldilib. İl ərzində əlillərə və şəhid ailələrinə dövlət qayğısı daha da artıb. Müxtəlif sosialyönümlü proqramlar uğurla həyata keçirilib.

Novruz Məmmədov məruzəsində bütövlükdə cəmiyyətin hər bir sferasını əhatə edən proqramların verdiyi konkret nəticələri ifadə edib. Buraya enerji layihələri, nəqliyyat marşrutları, elm, təhsil, səhiyyə, mədəniyyət, turizm, idman və s. sahələr daxildir. Onların reallaşması Azərbaycanın milli təhlükəziliyini təmin etməkdə ciddi rol oynayıb. Bu baxımdan sahibkarların fəaliyyətinin hüquqi bazasının daha da təkmilləşdirilməsi və biznes mühitinin xeyli yaxşılaşdırılması da böyük əhəmiyyət kəsb edir.

Baş nazir xüsusi vurğulayıb ki, "2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkənin hərbi-sənaye potensialının artırılması, ordu quruculuğunun təkmilləşdirilməsi, Silahlı Qüvvələrin müasir döyüş texnikası və silah-sursatla təmin edilməsi, şəxsi heyətin döyüş əhval-ruhiyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü fəaliyyət aparılmışdır". Bu faktlar ölkənin müdafiə qüdrətinin 2018-ci ildə daha da artdığını əyani olaraq təsdiq edir.

Nəhayət, Baş nazir 2018-ci ildə hökumətin fəaliyyət proqramının əsasını konkret ifadə edib. Novruz Məmmədov vurğulayıb: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı konseptual xarakterli çıxışında müəyyən etdiyi vəzifələri hökumət özünün fəaliyyət proqramı kimi qəbul edərək, bütün qüvvələrini və imkanlarını bu tapşırıqların icrasına səfərbər etmişdir". Buradan məntiqi bir nəticə alınır: 2018-ci ildə Azərbaycan hökumətinin əldə etdiyi nəticələr Prezidentin tapşırıq və göstərişlərinə ciddi əməl etməklə sıx bağlıdır. Hökumət dövlət başçısının apardığı siyasəti və həyata keçirdiyi proqramları var gücü ilə dəstəkləyir. Və bu proses daha da güclənəcək!

**Newtimes.az**

*Nazirlik:*

# Yanğından zərər çəkmiş sahibkarlara dəstək məqsədilə ilkin işlərə başlanılıb

**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin Bakı şəhəri, Nizami rayonu ərazisindəki ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardımın göstərilməsi barədə Sərəncamının icrasının təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyində yaradılmış İşçi Qrupu tərəfindən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin inzibati binasında (ünvan: Atatürk prospekti 134, telefon: 012-404-04-01) martın 29-dan onların fərdi qaydada qəbulu təşkil olunur.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbul İşçi Qrupu tərəfindən ziyan dəymiş sahibkarların hər biri ilə qabaqcadan razılaşdırılmaqla müəyyən olunmuş vaxtlarda həyata keçirilir.

Bununla bağlı, martın 29-da 142 sahibkar fərdi qaydada qəbul edilib, onların problemləri, dəymiş maddi ziyan, fəaliyyətlərinin təşkili və davam etdirilməsi ilə bağlı fikirləri öyrənilib, baş vermiş hadisə ilə əlaqədar yaranmış çətinliklər və bu istiqamətdə tələb olunan işlər müzakirə olunub.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi tərəfindən ticarət mərkəzləri ilə aparılmış müzakirələr nəticəsində əldə olunmuş razılığa əsasən, ilkin olaraq Bakı şəhərinin müxtəlif ərazilərində yerləşən ümumi sahəsi 12 min kvadratmetr olan 350-dək ticarət obyekti 5 ay icarə haqqı ödənilməmək şərtilə istifadə etmələri üçün sahibkarlara təklif edilib.

Bununla əlaqədar təqdim edilən təkliflər üzrə qəbul zamanı aparılmış müzakirələrin nəticəsi olaraq, 135 sahibkar tərəfindən 4934 kvadratmetr sahədə ticarət obyektinə ehtiyaclarının olduğu müəyyən edilib və bu istiqamətdə işlərə başlanılıb.

Eyni zamanda, qəbul zamanı İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına güzəştli kreditlərin verilməsi imkanları da sahibkarların diqqətinə çatdırılıb və nəticədə artıq 126 sahibkar tərəfindən təxminən 6,3 milyon manatdan çox güzəştli kreditdən istifadə etmək istəklərində olduqları bildirilib. Bununla bağlı Sahibkarlığın İnkişafı Fondu tərəfindən həmin sahibkarlarla ilkin işlərə başlanılıb və zəruri məlumatlandırma aparılıb.

Qəbulun martın 30-31-də davam etdirilməsi və başa çatdırılması planlaşdırılır, nəticələri barədə əlavə məlumat veriləcək.

**AZƏRTAC**

*Hikmət HACIYEV:*

# Vyana görüşü Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində danışıqlara yeni impuls verdi

**Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev martın 29-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın görüşü ilə bağlı AZƏRTAC-a məxsusi açıqlama verib.**



Hikmət Hacıyev bildirib ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında görüş normal və konstruktiv şəraitdə keçdi. Uzun fasilədən sonra Azərbaycan Prezidenti ilə Ermənistan rəhbərliyi arasında ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə görüş təşkil olundu. Bu, bir daha təsdiq edir ki, danışıqların formatı dəyişməz olaraq qalır və danışıqlar prosesi Azərbaycan ilə Ermənistan arasında aparılır. Xatırladaq ki, hələ martın 9-da ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanatla çıxış edərək danışıqlar prosesinin formatının dəyişməzliyi məqamını xüsusi vurğulamışdılar. Bildiyimiz kimi, Ermənistan tərəfindən danışıqlar prosesinin formatının dəyişdirilməsi ilə bağlı iddialar var idi. Azərbaycan da bu məsələyə qəti şəkildə etirazını bildirdi. Vyana görüşü bir daha göstərdi ki, danışıqlar münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında aparılmaqdadır.

Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında iki saatdan artıq təkbətək danışıqlar aparıldı. Sonra isə danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrlərinin və hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə davam etdirildi. Ümumilikdə danışıqlar üç saatdan çox müddətdə aparıldı. Bu görüş münaqişənin həlli ilə bağlı danışıqlara yeni impuls verdi. Nəticə etibarilə, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən, yəni, "3+2" formatında birgə bəyanat qəbul olundu. Bu bəyanatda da danışıqlar prosesinin əsas məsələləri, substantiv məqamlar barədə geniş fikir mübadiləsinin aparıldığı qeyd olunur, həmçinin sülh prosesinin irəli aparılması üçün münbit şəraitin yaradılmasının vacibliyi vurğulanır. Eyni zamanda, danışıqlar prosesində konkret və nəticəyönümlü addımların atılmasının vacibliyi kimi məqamlar qeyd edilir. Bəyanatda da qeyd olunduğu kimi, Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında aparılmış müzakirələr nəticəsində qərara alınıb ki, bundan sonra xarici işlər nazirləri səviyyəsində görüş keçirilsin və danışıqlar prosesinin irəliyə aparılması məsələləri müzakirə olunsun. Burada, həmçinin atəşkəslə bağlı məsələlər də qeyd olunur. Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, atəşkəsin gücləndirilməsi məsələsi substantiv danışıqların aparılması prosesi ilə paralel istiqamətlərdir və bir-birini tamamlamalıdır.

Prezident İlham Əliyevin Avstriyaya işgüzar səfəri çərçivəsində keçirdiyi görüşlərə, ölkələrimiz arasındakı əlaqələrə toxunan şöbə müdiri deyib: "Dövlətimizin başçısı səfər çərçivəsində Avstriyanın Federal Kansleri, Federal Prezidenti, vitse-kansleri ilə görüşlər keçirdi. Bu görüşlərdə Azərbaycan ilə Avstriya arasında mövcud olan yüksək səviyyəli siyasi əlaqələrdən məmnunluq ifadə olundu, ölkələrimizin iqtisadi-ticarət, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığı ilə bağlı məsələlər müzakirə edildi. Görüşlərdə biznes dairələri arasında işgüzar əlaqələrin yaradılması və inkişaf etdirilməsi mühüm məqam kimi qeyd olundu. Hər iki tərəfin təşəbbüsü ilə Birgə Əməkdaşlıq Şurası da yaradılıb ki, bu da əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından mühüm bir formatdır. Qeyd edək ki, martın 29-da Vyanada bu formatda da görüş keçirildi. Burada da aidiyyəti qurumların rəhbərləri müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi apardılar".

Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycanın regionda yaratdığı nəqliyyat imkanları Avstriya tərəfindən də maraqla qarşılanır. Bu nəqliyyat imkanlarından da istifadə etməklə Avstriya şirkətləri yeni bazarlara çıxış əldə edə bilərlər.

**AZƏRTAC**

# Energetika Nazirliyində kollegiya iclası keçirilib

**Energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə Energetika Nazirliyində növbəti kollegiya iclası keçirilib.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iclasda qaz təchizatı sahəsində mövcud vəziyyət, problemlərin aradan qaldırılması və sistemin dayanıqlı inkişafının təmin edilməsi, eləcə də icra intizamı, vətəndaşların qəbulu və müraciətlərin baxılması məsələlərinə dair müzakirələr aparılıb.

Bu gün Azərbaycanın, həmçinin qaz ölkəsi kimi tanındığını deyən energetika naziri bildirib ki, ölkədə təbii qaza olan daxili tələbat tam ödənilir. Həyata keçirilmiş qazlaşdırma işləri nəticəsində ölkə üzrə qazlaşma səviyyəsi hazırda 95,7 faizə çatdırılıb. Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ enerji mənbələri ilə təminatı istiqamətində tədbirlər görülür.

Nazir qaz təchizatının yaxşılaşdırılması, qaz itkisinin azaldılması, əhalinin qaz təchizatı şəbəkəsinə qoşulmasının asanlaşdırılması, habelə qaz qurğularının təhlükəsiz və etibarlı istismarı ilə bağlı görülən işlərdən bəhs edib.

Sonra neft-qaz siyasəti şöbəsinin müdiri Elxan Həşimovun qaz təchizatı sahəsində görülən tədbirlərə dair məruzəsi dinlənilib. Ölkənin qaz nəqli infrastrukturu, qazpaylayıcı şəbəkə, yeraltı qaz anbarları, qaz itkisi, qaz emalı və texniki baxışla əlaqədar mövcud vəziyyət və yeni təkliflər diqqətə çatdırılıb.

Kollegiya iclasında, həmçinin vətəndaşların qəbulu və müraciətlərə baxılması məsələlərinə xüsusi diqqət yetirilib. Bildirilib ki, aprel ayından başlayaraq energetika naziri tərəfindən vətəndaşların regionlarda qəbulu həyata keçiriləcək.

Cari ilin yanvar-mart ayları ərzində Energetika Nazirliyində inzibati xətalar haqqında 109 işə baxılıb. Bu müddətdə nazirliyə ümumilikdə 2246 müraciət daxil olub ki, bunlardan 709-u vətəndaş müraciətidir. İclasda müraciətlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından irəli gələn tapşırıqların icra vəziyyəti də nəzərdən keçirilib.

Yekunda energetika naziri 2019-cu ildə energetika sektorunda qarşıda duran vəzifələrin icrasının təmin edilməsi üçün nazirliyin bütün struktur bölmələrinə müvafiq tapşırıqlar verib.

**AZƏRTAC**

# Əmlak Məsələləri Dövlət Komitəsinin sədri İmişli şəhərində vətəndaş qəbulu keçirdi

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına əsasən martın 29-da Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov İmişli şəhərində vətəndaş qəbulu keçirdi. Qəbul cədvəlinə müvafiq olaraq İmişli rayonu ilə yanaşı, Beyləqan, Ağcabədi və Füzuli rayonlarından olan vətəndaşların da müraciətləri dinlənildi. Səsləndirilən fərdi müraciətlər əsasən, daşınmaz əmlakların qeydiyyata alınması, torpaqların təyinatına uyğun istifadəsi, dəqiq sərhədlərinin müəyyənləşməsi, kateqoriyasının dəyişdirilməsi ilə bağlı oldu. Dövlət əmlaklarının özəlləşdirilməsi və icarəyə götürülməsi, hərraclarda iştirak məsələləri də müraciətlərə aiddir.



Struktur bölmələrin rəhbərlərinin də iştirak etdiyi qəbulda hər bir vətəndaş müraciətləri həssaslıqla dinlənildi. Komitə sədri məsələlərin qanunvericiliyə uyğun olaraq həll olunması üçün tapşırıqlarını verdi. Müraciətlərin bir qismi yerindəcə müsbət həllini tapdı. Bəzi araşdırılma tələb edən məsələlər nəzarətə götürüldü. Komitənin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara ötürülməsi üçün qeydiyyata alındı. Bildirildi ki, birbaşa vətəndaşların iştirakı ilə məsələlərin həlli təmin ediləcək.

Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciətləri dinləyən sədr bu sahədə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan fərmanlardan, həyata keçirilən yeniliklərdən, prosedurların sadələşdirilməsindən danışdı. Bildirildi ki, Prezident İlham Əliyevin fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanının icrasına başlanılıb. Fərmana uyğun olaraq, bir neçə binada yerləşən mənzillərə çıxarışların verilməsi məqsədi ilə sənədlərin toplanılmasına başlanılıb.

Müasir tələblərə uyğun Milli Məkan Məlumatları İnfrastrukturunun formalaşmasına xidmət edən Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemi ilə bağlı görülən işlərin davam etdirildiyi də qeyd olundu. Belə ki, kadastr işlərinin yekunlaşdığı və nəticələrinin praktiki istifadəyə verildiyi 33 rayonda daşınmaz əmlak obyektləri, kommunikasiya xətləri, mühafizə zonaları, torpaqların sahə və ölçüləri, təyinatı, kəmiyyət və keyfiyyət göstəriciləri ilə bağlı dəqiq məlumatlar əldə olunub.

Qəbul zamanı komitə sədri Kərəm Həsənov göstərilən xidmətlərdə şəffaflığın və operativliyin təmin olunması barədə bütün zəruri tədbirlərin görülməsi üçün komitənin ərazi idarələrinin, tabeli qurumlarının yerli şöbələrinin rəhbərlərinə tapşırıqlarını verdi.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Çeçenistana səfər edib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun dəvəti ilə Qroznı şəhərində səfərdə olub.**



QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, A.Paşazadə Qroznıda Rusiya Qəhrəmanı Əhməd Kadırov adına Regional İctimai Fondun və İslam Mədəniyyəti, Elm və Təhsilə Dəstək Fondunun birgə təşkilatçılığı ilə keçirilən "İslam sülh və mərhəmət carçısıdır" adlı beynəlxalq dini konfransda iştirak edib.

Prezident İlham Əliyevin salamlarını Çeçenistan Respublikasının başçısı Ramzan Kadırova, bütün çeçen xalqına və konfrans iştirakçılarına çatdıran QMİ sədri bildirib ki, dini liderlərin əsas vəzifəsi xalqlarımızın xoşbəxtliyi və rifahı naminə qardaşlıq əlaqələrini və müqəddəs dinimiz İslamı gücləndirməkdir. İnanıram ki, bugünkü konfrans bu müqəddəs əmələ öz töhfəsini verəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qlobal miqyasda multikulturalizm və İslam həmrəyliyi ideyaları uğrunda yorulmadan çalışır. Qonşu dövlətlərlə yaxın münasibətlərin qorunub saxlanılması Azərbaycan Prezidentinin apardığı xarici siyasətin əsas prioritetlərindən biridir. Bu isə Qafqaz xalqlarının daha da yaxınlaşmasına, bölgədəki sülhə və sabitliyə, dostluq əlaqələrini, xüsusən də Rusiya ilə Azərbaycan arasında yaxın münasibətləri gücləndirməyə xidmət edir.

Bütün dünyada demokratiya, insan hüquqları və azadlıqlarının carçısı olduğunu iddia edən ölkələrdə irqi və dini dözümsüzlük, məcburi köç və demoqrafik fəlakətlərin səbəb olduğu hiddətli hərəkətlər var, fərdi qüvvələr bütün insanlığın sülh və sabitliyinə təhlükə yaradır. Yeni Zelandiyanın məscidlərində müsəlmanlara qarşı aşkar terror hücumunun terrorist hərəkət kimi tanınmaması da islamofobiyanın göstəricisidir.

Qafqaz xalqları arasında yaxşı münasibətlər qiymətli tarixi nailiyyətdir. Lakin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi istisna təşkil edir. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü hələ də davam edir, Azərbaycan torpaqlarının iyirmi faizi hələ də bütün beynəlxalq normalara baxmayaraq erməni ekstremistlərinin işğalı altındadır. Azərbaycan xalqının mədəni və dini mirası məhv edilir. Biz Qarabağ münaqişəsinin ədalətli, sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq həllini tələb edirik.

Sonra konfrans iştirakçılarının şərəfinə ziyafət verilib. Ziyafət çərçivəsində A.Paşazadə Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov ilə görüşüb. Səmimi şəraitdə keçən görüşdə QMİ sədrini çeçen torpağında hər zaman görməkdən məmnun olduğunu bildirən Çeçenistan lideri Azərbaycan xalqına və dövlətimizin başçısına qardaş salamlarını çatdırmağı A.Paşazadədən xahiş edib.

Qroznıya səfəri çərçivəsində QMİ sədri Qafqaz Xalqları Ali Dini Şurasının üzvləri - Şimali Qafqaz müftiləri ilə də görüşüb, cari məsələlər ətrafında müzakirələr aparılıb.

Daha sonra Beynəlxalq İslam Liqasının baş katibi Məhəmməd bin Əbdül Kərim əl-İsa ilə görüşən A.Paşazadə onunla İslam aləmində cərəyan edən hadisələr ətrafında fikir mübadiləsi aparıb.

**AZƏRTAC**

*XİN:*

# Ermənistan müdafiə nazirinin Nyu-Yorkda səsləndirdiyi fikir təhrikçi xarakter daşıyır

**Ermənistan müdafiə naziri D.Tonoyanın Nyu-Yorkda erməni icması ilə görüş zamanı "sülh naminə ərazi" formulasının əvəzinə "yeni ərazilər üçün yeni müharibə" fikrini səsləndirməsi bu ölkənin işğalçı və qəsbkar siyasətinin Ermənistanın yüksək səviyyəli rəsmisi tərəfindən növbəti etirafıdır.**

AZƏRTAC xəbər verir ki, bu fikir Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb.

Açıqlamada bildirilir ki, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin Vyanada görüşü nəticəsində münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlar prosesində konkret və nəticəyə yönəlik addımların atılması, sülh mühitinin yaradılması ilə bağlı qəbul edilən birgə bəyanatdan dərhal sonra erməni müdafiə nazirinin belə bir çıxışı təhrikçi xarakter daşıyır və münaqişənin sülh yolu ilə həllinə, bu xüsusda Minsk qrupunun həmsədrlərinin simasında beynəlxalq ictimaiyyətin səylərinə qarşı çıxır.

"Ermənistan tərəfinin diqqətinə çatdırırıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında yer alır və beynəlxalq hüququn ona verdiyi özünümüdafiə haqqı ilə Azərbaycan işğal edilmiş torpaqlarını qısa müddətdə azad etmək iqtidarındadır.

Azərbaycan Ermənistan kimi digər dövlətlərin ərazilərinə iddialarla çıxış etmir və ərazilər zəbt etmək fikrində deyil. Azərbaycanın tələbi BMT TŞ-nin müvafiq qətnamələrinə uyğun olaraq, onun beynəlxalq tanınmış ərazilərindən işğalçı Ermənistan qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxmasıdır. Bütün bu illər ərzində beynəlxalq ictimaiyyətin dəstəyi ilə aparılan səylərimiz məhz bu məqsədə yönəlib. Əks təqdirdə, Azərbaycan beynəlxalq hüququn müvafiq norma və prinsipləri, o cümlədən BMT Nizamnaməsini rəhbər tutaraq öz torpaqlarını bütün digər vasitələrlə erməni işğalından azad etməyə hazırdır və bundan ən yaxşı xəbərdar olan elə məhz Ermənistandır.

Yekunda müdafiə nazirinin çıxışı kontekstində Ermənistan ali rəhbərliyinin şərhlərini eşitmək istərdik: nazir bu çıxışını Ermənistan rəhbərliyinin razılığı əsasında edibmi, yoxsa bu, nazirin ən azından danışıqların mahiyyətini və nəticədə qəbul edilmiş birgə bəyanatı şübhə altına alan şəxsi improvizasiyasıdırmı?".

**AZƏRTAC**

# Bütün Xəzəryanı ölkələrlə əməkdaşlıq edir, daimi olaraq müxtəlif sahələrdə xidmət göstəririk

**Dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində cox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir model - Azərbaycan modeli yaranmışdır.**

Bu gün biz həmin modelin davamı olaraq ciddi iqtisadi islahatlar dövrünə qədəm qoymuşuq. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Sərəncamında ölkə iqtisadiyyatının yol xəritəsi hazırlanıb. Dövlət başçısının təsdiqlədiyi yol xəritəsi ticarət və logistika sahəsinin inkişafına həsr olunmuşdur.

Ölkəmizin Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən biri kimi özünü təsdiq etməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində gəmiqayırma zavodunun istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir.

Əlverişli investisiya iqliminin mövcud olduğu Azərbaycan bu gün Xəzər hövzəsində ən böyük ticarət donanmalarından birinə sahibdir. Hazırda 200-dən çox gəmi Xəzər sularında yükdaşımalar aparır.

Ümumiyyətlə, dünya ticarət məhsullarının 80 faizdən artıq hissəsinin təhlükəsiz, maddi cəhətdən sərfəli və ətraf mühitə daha az mənfi təsir göstərməklə daşınması məhz dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir.

**"FREQAT" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC)** 2004-cü ildə təsis olunmuşdur. **Şirkətin direktoru Qoşqar İsmayıl** bildirdi ki, 15 ildir bütün Xəzəryanı ölkələrlə əməkdaşlıq edir, daimi olaraq müxtəlif sahələrdə xidmət göstəririk. Fəaliyyət istiqamətlərimiz gəmilər və bütün növ üzən qurğular üçün xilasetmə avadanlığının, gəmilərin ehtiyat hissələrinin, müxtəlif naviqasiya avadanlıqlarının, liman avadanlıqlarının təchizatı, liman xidmətləri və gəmi təmirini həyata keçirməkdir. Şirkət gəmi və dəniz qurğuları üçün müxtəlif tipli yaşayış və iş modullarının istehsalı ilə də məşğul olur. Son illər ərzində kollektivimiz bir neçə gəmi təmiri və mühəndislik layihələrini həm Azərbaycanda, həm də ölkədən kənarda həyata keçirib. Onu da xüsusi qeyd edək ki, "Freqat" MMC layihələrində tanınmış neft-qaz şirkətləri ilə və dənizçilik sahəsində ən qabaqcıl şirkətlər və qurumlarla sıx əməkdaşlıq edir.

Bu gün şirkət eyni anda bir neçə irihəcmli təmir və mühəndislik layihəsini icra və idarə etmək qabiliyyətindədir. Həm təcrübəli, həm də cavan peşəkarlardan ibarət komanda şirkətin fəaliyyətini daha da kreativ və müasir edir, bu da qeyri-standart qərarların qəbul olunmasında ən son texnologiyaların istifadə olunmasında özünü göstərir. Ölkəmizdə, eləcə də Xəzəryanı regionunun dənizçilik və neft-qaz sənayesində fəaliyyət göstərən şirkətlərinin sifarişlərini icra edir.

Tarixi inkişaf yolu keçən dəniz nəqliyyatı bütün zamanlarda öz əhəmiyyətliyini saxlayıb. Azərbaycanın müstəqillik qazandıqdan sonra xüsusən dəniz nəqliyyatı sahəsinin tənzimlənməsi mühüm səciyyə daşıyır.

Prezident İlham Əliyevin bu sahədə apardığı məqsədyönlü islahatlar nəticəsində dəniz nəqliyyatı yeni inkişaf mərhələsinə qədəm qoyub. Ona görə də bu sahədə qanunvericiliyimizin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər də xüsusi qeyd edilməlidir.

Onlardan biri də Dövlət Dəniz Agentliyinin tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi ilə Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxslərinin nizamnamələri və strukturlarını təsdiq edən qərardır.

Bu qərara əsasən, Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin əsas funksiyaları müəyyənləşib. Bu funksiyalar əsasən Azərbaycanın ərazi sularında, həmçinin limanların akvatoriyalarinda "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"nın tələblərinə riayət olunmasına nəzarətin həyata keçirilməsi, dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin edilməsi, gəmilərin hərəkətinin idarə olunmasına nəzarətin həyata keçirilməsi, gəmilərə naviqasiya, meteoroloji və digər məlumatların ötürülməsidir.

Qurumun digər funksiyaları isə dəniz naviqasiya avadanlıqlarının işlək vəziyyətdə olmasına nəzarət etmək, kanallarda dibdərinləşdirmə işlərinin təşkili və gəmilərə dənizdə yaranmış təhlükəli vəziyyətlərdən çıxılması üçün məsləhət və tövsiyələr verməkdən ibarətdir.

Həmçinin gəmilərdə liman və bayraq nəzarəti ilə əlaqədar yoxlamaların həyata keçirilməsi istiqaməti üzrə fəaliyyət göstərən mərkəzin gəmi üzgüçülüyə yararlı olmadıqda, gəminin yüklənilməsinə, təchizatına, gəmi heyətinin komplektləşdirilməsinə dair tələblər pozulduqda və ya gəmidə olan insanların həyatına, sağlamlığına təhlükə, habelə gəminin dəniz mühitinə zərər vurmaq təhlükəsi yarada biləcək digər çatışmazlıqlar olduqda, gəmi sənədlərinə olan tələblər pozulduqda və müəyyən edilmiş digər hallarda gəminin limandan çıxışını qadağan etmək hüququ nizamnamədə əks olunub.

Onu da xatırladaq ki, "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya"nın tələblərinin yerinə yetirilməsi məqsədilə Xəzəryanı ölkələrdə ilk dəfə olaraq məhz Azərbaycanda ən son naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilmiş Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi yaradılıb.

Bu mərkəzin funksiyası isə Azərbaycanın ərazi sularında üzən gəmilərin mövqeyinin peyk və radarlar vasitəsilə izlənilməsi, onların hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, naviqasiya xəbərdarlıqlarına və hava haqqında proqnozlara dair müvafiq məlumatların gəmilərə çatdırılmasıdır.

Azərbaycan gəmiçilik sahəsində mövcud infrastrukturun təkmilləşdirilməsi, habelə regionda ən iri, müasir və güclü potensiala malik milli gəmiqayırma zavodunun tikintisi dəniz nəqliyyatı sahəsinə dövlət tərəfindən göstərilən dəstəyin nəticəsidir.

"Freqat" MMC Azərbaycan-Amerika Ticarət Palatasının ("AmCham") və dünyanın dənizçilik sahəsində ən nüfuzlu təşkilatlarından biri Baltik və Beynəlxalq Dəniz Şurasının (BİMCO - Балтийский и Международный морской совет) fəal üzvüdür.

Şirkətimiz 2018-ci ildə "Caspian Energy Azerbaijan Club"unun təsis etdiyi "Dəniz Nəqliyyatına Xidmət" nominasiyası üzrə ilin Şikrəti mükafatına layiq görülmüşdür.

Bu gün dəniz nəqliyyatı sistemini davamlı olaraq modernləşdirən Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə Azərbaycanın Avrasiya məkanının ən mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilməsi, digər sahələrlə yanaşı dəniz nəqliyyatı sahəsində də həyata keçirilən islahatların uğurlarıdır.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

# Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı






**Martın 30-da Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı keçirilmişdir.**

**Tədbir iştirakçıları əvvəlcə Fəxri Xiyabana gedərək, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmiş, müstəqil Azərbaycan dövlətinin qurucusunun xatirəsini böyük ehtiramla yad etmişlər.**

**Yığıncaqda Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri İctimai Birliyinin (Assosiasiyasının) və Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının illik hesabatı dinlənilmişdir.**

**Məruzə ilə çıxış edən birliyin və ittifaqın sədri, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov** ittifaqın illik fəaliyyəti barədə məlumat verərək qeyd etdi ki, ölkəmiz müharibə şəraitindədir, torpaqlarımızın 20%-i işğal altındadır. Güclü ordumuz vardır. Ordumuz torpaqlarımızın azad edilməsi kimi mühüm vəzifəni hər an yerinə yetirməyə qadirdir. Ancaq möhtərəm Prezidentimiz sülh tərəfdarı olduğundan münaqişənin danışıqlar yolu ilə həllinə üstünlük verir. Əgər bu nəticə verməsə, qüdrətli ordumuz bu işin öhdəsindən məharətlə gələcək.

Arxada qoyduğumuz 2018-ci il Azərbaycan üçün uğurlu illərdən olmuşdur. Təməli dahi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət inkişafı kursu ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilmiş, dünyada baş verən siyasi və iqtisadi təlatümlərə, qlobal böhranlara baxmayaraq, ölkəmizdə sabitlik və intensiv inkişaf davam etdirilmişdir.

Bu inkişaf məhkəmə fəaliyyətinə də öz müsbət təsirini göstərmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına dair tapşırıqları əsasında məhkəmə fəaliyyətinin və infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə informasiya sisteminin tətbiqi üzrə mühüm tədbirlər həyata keçirilmiş və bu görülmüş işlər məhkəmə sistemində köklü dəyişikliklərə səbəb olmuşdur.

Həmçinin, xüsusilə qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik və xeyirxahlıq kimi ən ali keyfiyyətləri əldə rəhbər tutaraq, bayramlar ərəfəsində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır. İlham Əliyevin martın 16-da imzaladığı “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” sərəncamı 431 nəfər məhkuma şamil olundu. Bu, cənab İlham Əliyevin ölkə vətəndaşlarına göstərdiyi yüksək diqqət və qayğısının bariz nümunəsidir. Dövlət başçısının 16 illik prezidentliyi dövründə imzaladığı fərman və sərəncamlarda bu ali diqqətin və mərhəmətin şahidi olmuşuq. Sonuncu, yəni 33-cü əfv sərəncamını da nəzərə alsaq, İlham Əliyev ötən 15 ildə 7961 nəfəri əfv edib. Atılan addımlar Azərbaycan dövlətinin siyasətində insan amilinə verilən dəyəri nümayiş etdirməklə yanaşı, hüquqi islahatların da zamanın tələbinə uyğun olaraq təkmilləşdirildiyini təsdiqləyir.

Son illər Respublika məhkəmələrinin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin qanuna müvafiq şəkildə həyata keçirildiyi müstəqil hakimiyyət qolu kimi fəaliyyət göstərmələri, cəmiyyətdə yüksək etimad qazanmaları bu sahədə beynəlxalq təcrübənin geniş tətbiqi ilə şərtləndirilmişdir.

Ədliyyə naziri hörmətli Fikrət Məmmədovun sədrlik etdiyi Məhkəmə-Hüquq Şurasının bilavasitə təşəbbüsü və ciddi səyləri ilə məhkəmələr özünü idarəetmə qurumu kimi cəmiyyətdə yüksək nüfuz və etimad qazanmış, ədalət mühakiməsinin səmərəliliyi yüksəldilmiş, məhkəmə sistemi qlobal miqyasda təkmilləşmiş və müasir tələblərə cavab verən yeni məhkəmə binaları tikilib istifadəyə verilmişdir.

Məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi prosesi 2018-ci ildə də davam etdirilmişdir.

Mülki-Prosessual Məcəlləyə “Elektron məhkəmə” informasiya sisteminin geniş tətbiq edilməsini nəzərdə tutan köklü dəyişikliklər edilmiş, məhkəmə icraatı zamanı süründürməçilik, işlərə baxılmasının əsassız uzadılması hallarının qarşısını almaq məqsədilə məhkəmə hazırlıq və məhkəmə baxış iclaslarının təyin edilməsinin konkret müddəti müəyyən edilmiş, hakim tərəfindən məhkəmə baxışının təxirə salınması-imkanı azaldılmışdır.

“Məhkəmələr və hakimlər haqqında” Qanuna edilmiş dəyişikliklərə əsasən hakimlərin maddi təminatının yaxşılaşdırılması üzrə həyata keçirilən tədbirlər çərçivəsində onların əməkhaqqı orta hesabla 10 faiz artırılmışdır.

800-dən çox namizəddən 108 nəfər hüquqşünas çoxmərhələli imtahanları 1 il müddətinə davam edən təlimləri və məhkəmələrdə, o cümlədən Türkiyədə və Avropa Məhkəməsində stajkeçməni uğurla başa vuraraq müxtəlif birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunmuşlar. Onlardan 29 nəfəri qadın hakimlərdir. Biz İttifaqın bütün üzvləri adından onları bu yüksək şərəfli vəzifəyə təyin olunmaları münasibətilə təbrik edir, hakim adını həmişə uca tutmağı tövsiyə edirik.

Hazırda hakim korpusunun 70%-dən çoxunu yeni qaydalarla seçilmiş hakimlər təşkil edir.

Yuxarı instansiya məhkəmələrində olan 30 vakansiya hakimlərlə tam komplektləşdirilmiş və apellyasiya məhkəmələrinin sədr müavini və kollegiya sərdləri təyin olunub.

Məhkəmə sistemində mövcud olan 600 hakim ştatından qeyd olunan təyinatlardan sonra 31 vakansiya qalmışdır.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi təntənəli surətdə qeyd olunmuş və bu münasibətlə dövlət başçısının sərəncamları ilə bir qrup hakim və MHŞ üzvləri dövlət təltifləri ilə və “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” medalı ilə təltif olunublar.

Fəliyyətə başladığı 2002-ci ildən hakimlərin fəaliyyətini vahid ictimai institut, çərçivəsində əlaqələndirilməsinə, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsinə, digər ölkələrin məhkəmə təcrübəsinin öyrənilərək səmərəli tətbiqinə, müsbət meyillərin tətbiqinə, qanunların təkmilləşdirilməsinə çalışan Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı bu istiqamətlərdə mühüm nəticələrə nail olmuşdur.

İttifaqın məhkəmələr və hakimlərlə iş sahəsində ixtisaslaşmış BHA və onun regional qurumu olan AHA ilə sıx əməkdaşlığı da respublikamızın beynəlxalq nüfuzunun gücləndirilməsinə, əcnəbi təcrübənin öyrənilərək praktik şəkildə tətbiqinə xidmət edir.

BHA-nın 2018-ci il oktyabr ayında Mərakeşdə təşkil olunmuş 61- ci illik iclasında təmsil olunmuşuq. BHA-nın Prezidenti fransalı hakim Kristof Reqnardın əvvəlcədən konfrans iştirakçılarına paylanmış məruzəsi müzakirə olundu və bəyənildi.

BHA-nın məruzəsinin əsas istiqamətləri bunlardan ibarət idi:

–Müxtəlif tədbirlərdə iştirak;

–Beynəlxalq qurumlarla sıx əməkdaşlıq;

–Öz ölkəsində problem yaşayan milli assosiasiyalara dəstək və sair.

Konfrans iştirakçıları 4 araşdırma komissiyasında işlərini davam etdirmiş, Azərbaycan nümayəndəsinin üzvü olduğu 2-ci Araşdırma Komissiyasında “Məhkəmə işlərinin effektiv aparılması üzrə strategiyaları” mövzusu müzakirə olunmuşdur. Bu mövzu üzrə suallar tərəfimizdən BHA-ya vaxtilə cavablandırılmışdı və bu cavablar komissiyanın iclasında da səsləndirildi.

Daha sonra Cənubi Amerika regional qrupunun Prezidenti cənab Rafael de Menres məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsi sahəsində Beynəlxalq Vəkillər Assosasiyası ilə əməkdaşlığın rolundan danışmış, vəkillərə hüquq təhsili sahəsində əldə edilmiş uğurlu əməkdaşlığı vurğulanmış və ayrı-ayrı ölkələrdəki təcrübədən danışmışdır.

Vəkillərlə əməkdaşlıqdan sonra Menres Anqola, Boliviya, Salvador və Qvatemala ölkələrinin BHA üzv olmaq barədə müraciətlərini səsləndirmiş, həmin ölkələr üzrə məruzəçilər çıxış etmiş və bu ölkələr yekdilliklə üzvlüyə qəbul edilmişlər.

Qeyd etdiyim kimi, Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları ittifaqının əsas fəaliyyəti, məlum olduğu kimi, hakimlərin ümumi mənafelərini təmsil və müdafiə etməyə, onların maddi-sosial vəziyyətini, o cümlədən mənzil şəraitini yaxşılaşdırmağa yönəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli, 819 saylı Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”na əsasən Azərbaycan ədliyyəsinin 2019-2023-cü illərdə daha da inkişaf etdirilməsi üçün müəyyən olunan əsas istiqamətlərindən biri də ədliyyə işçilərinin və hakimlərin sosial müdafiəsinin yaxşılaşdırılmasıdır.

Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər proqramına əsasən ədliyyə işçilərinin və hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə onların təminatlarının yaxşılaşdırılması məsələsi ilə bağlı təkliflərin təqdim olunması və eyni zamanda onların mənzilə olan ehtiyacının güzəştli şərtlərlə təmin edilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması üçün maliyyə imkanları nəzərə alınmaqla mənzil-tikinti kooperativinin təsis olunması və çoxmənzilli yaşayış binasının inşa edilməsi zərurəti yaranmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli, 1138 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi”nə əsasən müvafiq dövlət orqanlarının sifarişi əsasında “MİDA” MMC tərəfindən bu cür mənzillərin tikilərək sifarişçilərə təhvil verilməsi nəzərdə tutulmuşdur.

Yuxarıda qeyd olunanlara əsasən Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosasiyaları İttifaqı hakimlərin mənzil-məişət şəraitinin yaxşılaşdəırılması məqsədi ilə Bakı şəhərinin Yasamal rayonu ərazisində, xarici dairəvi yolun kənarında (“Qanlı göl”ün şimal hissəsində) tikilən Yasamal yaşayış kompleksinin yerləşdiyi ərazidə Azərbaycan Respublikası məhkəmələrində hakim vəzifəsində işləyən vətəndaşlar üçün çoxmənzilli binanın tikilməsi məqsədi ilə torpaq sahəsinin ayrılmasına köməklik göstərməyi-Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyindən xahiş etmişdir.

Qeyd etdiyim bina tikintisi ilə bağlı danışıqlar davam etdirilir, yaxın vaxtda bu barədə Sizə əlavə məlumat veriləcəkdir.

Hörmətli həmkarlar, nəhayət, biz hakim korpusu ölkə Prezidenti İlham Əliyevin məhkəmə qərarlarının ədalətliliyi, şəffaflığın artırılması, məhkəmə etikasına ciddi əməl edilməsi, məhkəmə fəaliyyətində korrupsiyanın aradan qaldırılması və şikayətlərin azaldılması barədə qarşımızda qoyduğu mühüm vəzifələrə daha ciddi yanaşmalı, vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması və insanlara qayğılı münasibət göstərilməsinə xüsusilə diqqətli olmaqla məhkəmə istifadəçiləri arasında, bütövlükdə isə cəmiyyətdə vətəndaş məmnunluğunun artırılmasına çalışmalıyıq.

*Tədbirdə, həmçinin, Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai Birliyinin (Assosasiyasının) illik hesabatı dinlənilmiş, məruzəçi - birliyin sədri, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi ötən dövr ərzində Assosiasiyanın fəaliyyəti barədə ətraflı məlumat vermişdir.*

*Yığıncaqda Ali Məhkəmənin Cinayət kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Şahin Yusifov, Ali Məhkəmənin Mülki kollegiyasının hakimi Əsəd Mirzəliyev və İnzibati-iqtisadi kollegiyasının hakimi Xəqani Məmmədov “Məhkəmələr tərəfindən qətimkan tədbirlərinin tətbiqi təcrübəsi və qətimkan tədbirinin əsaslarının mövcudluğunun araşdırılması xüsusiyyətləri”, “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il fərmanından irəli gələn məsələlər barədə (kredit borcları ilə bağlı hazırda məhkəmələrdə olan iddiaların hüquqi taleyi barədə) və “İnzibati mübahisələrə baxılmasının xarakterik xüsusiyyətləri” mövzusunda çıxış etmiş, məhkəmə fəaliyyətinin aktual məsələləri ətrafında səmərəli müzakirələr, təcrübə və fikir mübadiləsi aparılmış, son il ərzində xarici ölkələrdə xidməti ezamiyyətdə olmuş hakimlər öz təəssüratlarını bölüşmüş, qabaqcıl dünya təcrübəsi və məhkəmə fəaliyyəti sahəsində müsbət yeniliklər barədə həmkarlarına məlumat vermişlər.*

*Sonda təşkilati məsələlərə baxılmış, hər iki birliyə yeni üzvlər qəbul edilmişdir.*

**Məhəmməd VƏLİYEV,**
**Bəybala BƏYBALAYEV,**
**“Respublika”.**

# Dövlət Təhlükəsizliyi Xidməti işçilərinin peşə bayramı qeyd olundu

## İmişli

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzərək ziyarət etdilər.



Peşə bayramında İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev, İmişli Dövlət Təhlükəsizliyi Xidmətinin işçiləri və hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak etdilər. Sonra İmişli şəhər Heydər Əliyev Mərkəzində Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətini əks etdirən videoçarxa baxıldı. Dövlət Himni səsləndikdən sonra, tədbiri giriş sözü ilə açan icra başçısı bildirdi ki, 28 mart 1919-cu ildə Azərbaycanda ilk təhlükəsizlik orqanı Xalq Cümhuriyyəti tərəfindən yaradılmışdır. Sonrakı illərdə—sovetlər dönəmində bu təşkilatın adı ÇK, NKVD, Dövlət Təhlükəsizlik Komitəsi adlandırılmışdır. 1967-ci ilə qədər bu təşkilata qeyri millətin nümayəndələri rəhbərlik etmişdir, lakin həmin il DTK-ya rəhbər Heydər Əliyev təyin edilməsi ilk növbədə komitədaxili kadr siyasətində böyük dəyişikliklərə səbəb oldu, azərbaycanlı əməkdaşların işə götürülməsində və yüksək vəzifələrə irəli çəkilməsində ulu öndər böyük əməyi olmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yaranmışdır. Prezident Heydər Əliyevin 1997-ci il 23 mart tarixli fərmanı ilə 28 mart - Milli Təhlükəsizlik Orqanlarının Peşə Bayramı Günü elan olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 dekabr 2015-ci il tarixli 706 saylı Fərmanı ilə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin əsasında, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti yaradıldı. Dövlət Təhlükəsizlik Xidməti qarşısında duran əsas vəzifələri Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına, digər həyati əhəmiyyət maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmətlərinin və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat, digər təxribat-pozuculuq fəaliyyətinin qarşısını almaqdan ibarətdir. Dövlət müstəqilliyinin bərpa olunmasından sonra xarici xüsusi xidmət orqanlarının Azərbaycanda həyata keçirdiyi kəşfiyyat, təxribat-pozuculuq fəaliyyəti hallarının aşkar olunması və neytrallaşdırılması baxımından mühüm nailiyyətlər əldə olunmuşdur. Xidmətin qarşısında həmçinin dövlət sirri təşkil edən məlumatların qorunması, korrupsiya, terrorizm, narkotik, psixotrop və radioaktiv maddələrin, odlu silah və döyüş sursatının beynəlxalq qanunsuz dövriyyəsi ilə, mütəşəkkil transmilli cinayətkarlığın daha təhlükəli növləri ilə mübarizə kimi son dərəcə məsul vəzifələr durur. Vilyam Hacıyev çıxışının sonunda Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşlarını peşə bayramları münasibəti ilə təbrik edərək xidmətdə fərqlənən əməkdaşlara Fəxri fərmanlar təqdim etdi.

## Cəlilabad

Cəlilabad şəhərindəki Heydər Əliyev Mərkəzində Dövlət Təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyinə həsr olunmuş tədbir keçirildi. Tədbirdə Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov, DTX-nın Cəlilabad rayon şöbəsinin kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri iştirak etdilər. Tədbirin iştirakçıları əvvəlcə Heydər Əliyev



parkında ümummilli liderin abidəsi önünə tər güllər düzərək, əziz xatirəsini ehtiramla yad etdilər. Tədbirdə çıxış edən Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi münasibəti ilə DTX-nın Cəlilabad Rayon Şöbəsinin şəxsi heyətini təbrik edib, ölkəmizin milli maraqlarının, mənafelərinin etibarlı təmin olunması və qorunması istiqamətindəki dəyərli fəaliyyətlərində uğurlar arzuladı, xüsusi xidmət orqanlarının ötən dövr ərzində böyük və şərəfli inkişaf yolu keçdiyini bildirdi. O, DTX-nın respublikanın inkişafında, təhlükəsizliyinin və sabitliyinin qorunmasında mühüm rol oynadığını vurğulayaraq, ölkəmizin davamlı və dayanıqlı inkişafından söz açdı. RİH başçısı bildirmişdir ki, təhlükəsizlik orqanlarının fəaliyyətinin böyük bir dövrü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin ən böyük xidmətlərindən biri də siyasi tariximizdə ilk dəfə təhlükəsizlik orqanlarının milliləşdirilməsinə nail olmasıdır. Ulu öndər siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində bu gün Azərbaycan regionun lider dövlətinə çevrilib. Ölkə rəhbəri Azərbaycan dövlətinin və xalqının maraqlarını uğurla müdafiə edir, ərazi bütövlüyünün bərpası və təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm və taleyüklü addımlar atır. DTX-nın Cəlilabad Rayon Şöbəsinin rəisi polkovnik Mehman Qasımov Azərbaycanın təhlükəsizlik orqanlarının keçdiyi uzun və şərəfli yol barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Şərəfli və məsuliyyətli işlərində DTX əməkdaşlarına müvəffəqiyyətlər arzulayan digər natiqlər də onlara bayram təbriklərini çatdırdılar. Tədbirdə Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə xidmətdə fərqlənən DTX-nın Cəlilabad Rayon Şöbəsinin bir qrup əməkdaşı Cəlilabad Rayon İcra Hakimiyyətinin Fəxri fərmanı ilə təltif olundu. Sonda iştirakçılar Azərbaycan təhlükəsizlik orqanlarının 100 illiyinə həsr olunmuş filmə baxdılar.

## Biləsuvar

Biləsuvar Rayon İcra Hakimiyyətində Dövlət Təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev, DTX-nın Biləsuvar Rayon Şöbəsinin kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri iştirak etdilər.

İştirakçılar əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsinin önünə tər çiçəklər qoydu, əziz xatirəsi yad edildi.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev Dövlət Təhlükəsizliyi Xidməti orqanlarının bütün əməkdaşlarını, o cümlədən rayon şöbəsinin kollektivini peşə bayramları və Dövlət Təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi münasibətilə səmimi qəlbdən təbrik etdi, onlara cansağlığı, çətin və şərəfli işlərində yeni-yeni uğurlar arzuladı və bildirdi ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş, keçmişin ən ümdə şanlı dəyərlərini özündə əks etdir-



məklə gələcəyə hesablanmış uğurlu dövlətçilik strategiyası bu gün müstəqil ölkəmizdə bütün sahələrdə olduğu kimi, dövlət təhlükəsizlik istiqamətində də layiqli şəkildə davam etdirilməkdədir.

Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən respublikamızda dövlət təhlükəsizliyinin qorunması istiqamətində atılan uğurlu addımların nəticəsində Azərbaycan hazırda regionun lider ölkəsinə çevrilib. Bu gün mövcud olan sabitlik və təhlükəsizliyin etibarlı qorunmasında dövlət təhlükəsizlik orqanlarının öz layiqli rolu və xidmətləri vardır.

Sonra DTX-nın Biləsuvar Rayon Şöbəsinin bir qrup əməkdaşına rayon icra hakimiyyətinin Fəxri fərmanları təqdim olundu.

Çıxış edənlər peşə bayramları münasibətilə rayonun Dövlət Təhlükəsizlik xidməti işçilərinə öz təbriklərini bildirdilər.

Tədbirdə DTX-nın Biləsuvar Rayon Şöbəsinin rəisi Ramil Bənnayev çıxış edərək onlara göstərilən bu yüksək diqqət və qayğıya görə öz minnətdarlığını bildirdi.

## Beyləqan

Azərbaycan Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat orqanlarının yaranmasının 100 illik yubileyi və əməkdaşlarının peşə bayramı münasibətilə Heydər Əliyev Mərkəzində tədbir keçirildi.

Öncə rayon icra hakimiyyətinin başçısı Asif Ağayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, Dövlət Təhlükəsizliyi Xidməti Beyləqan rayon şöbəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri ulu öndər Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri düzdülər.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə ilk öncə Azərbaycan Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat orqanlarının yaranmasının 100 illik yubileyinə həsr olunmuş film nümayiş etdirildi. Tədbiri giriş sözü ilə açan Asif Ağayev Azərbaycan Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat orqanlarının yaranmasının 100 illik yubileyi və peşə bayramı münasibətilə təhlükəsizlik xidməti orqanlarında çalışan əməkdaşları təbrik etdi.

Rayon icra hakimiyyətinin başçısı qeyd etdi ki, zəngin və mənalı ömrünün 25 ilini dövlət təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş ümummilli Lider Heydər Əliyevin 1997-ci il mart ayının 23-də imzaladığı Sərəncamla hər il martın 28-i Azərbaycan Respublikasının təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.

Milli təhlükəsizlik orqanlarının Azərbaycanın milli maraqlarının və təhlükəsizliyinin təmin olunmasında xüsusi yeri və rolu vardır. Sabitliyin və təhlükəsizliyin təmin olunması, cinayətkarlığa qarşı mübarizənin düzgün və ciddi şəkildə aparılması Azərbaycanın inkişafına mühüm töhfə verən amillərdir.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin qayğısı ilə daim təkmilləşən Dövlət Təhlükəsizliyi Xidməti hazırda inkişafının yeni mərhələsinə qədəm qoyub. Keçmişin ən ümdə şanlı dəyərlərini özündə əks etdirməklə gələcəyə hesablanmış uğurlu dövlətçilik strategiyası bu gün müstəqil ölkəmizdə bütün sahələrdə olduğu kimi, dövlət təhlükəsizlik istiqamətində də layiqli şəkildə davam etdirilməkdədir.

Bu gün peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edən Azərbaycan Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat orqanlarının əməkdaşları peşəkarlıq və müasir iş üslubu ilə çalışaraq xalqımızı və müstəqil dövlətimizi xarici qəsdlərdən və düşmən




qüvvələrin təxribatlarından qətiyyətlə qoruyurlar. Ulu öndərin şərəfli məktəbinin davamçılarını təbrik edir, xalqımızın milli maraq və mənafelərinin, təhlükəsizliyin, sabitliyin, əmin-amanlığın qorunması sahəsində fəaliyyətlərində uğurlar arzulayırıq.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti Beyləqan Rayon Şöbəsinin rəisi Nadir Bağırov öz çıxışında keçirilən tədbirə və təbrikə görə təşəkkür etmiş, Təhlükəsizlik Orqanları əməkdaşlarına göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Beyləqan rayon Ağsaqqallar şurasının üzvü Vahid Quliyev, rayon prokuroru Azər Osmanov, rayon polis şöbəsinin rəisi Rəşid Piriyev və Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Rəfail Pəsiyev təbriklərə qoşulmuş və peşə bayramı münasibətilə Təhlükəsizlik orqanları əməkdaşlarını təbrik etmişlər.

Tədbirin sonunda Azərbaycan Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat orqanlarının yaradılmasının 100 illik yubileyi və əməkdaşlarının peşə bayramı münasibətilə bir qrup əməkdaş Beyləqan Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

**Ərəstun ABDULOV,**
**“Respublika”.**

*31 mart Azərbaycanlıların soyqırımı günüdür*

# Qərbi Azərbaycanda ermənilərin törətdikləri vandalizm aktı

**Türk xalqlarına qarşı düşmənçilik mövqeyində dayanan, terrorçu kimi tanınan erməni daşnakları "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq iddialarından heç vaxt əl çəkmirlər. Ermənilər tarixən Rusiyanın müəyyən dairələrinin əlində Türkiyəyə, Azərbaycana və digər türk xalqlarına qarşı terrorçuluq alətinə çevrilmişdir.**

1885-ci ildə ermənilər Vyanada "Armenakan, 1886-cı ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə Tiflisdə yaratdıqları "Daşnaksütyun" terrorçu təşkilatlarının qarşısına qoyduqları başlıca məqsəd üç dövlətin - Rusiya, Türkiyə və İranın ərazisində yaşayan bütün erməniləri öz bayraqları altında birləşdirmək ideyası idi. İlk gündən radikal terrorçuluq mövqeyini əsas tutan bu partiyaların XIX əsrin axırlarından başlayaraq türk soyundan olan xalqlara qarşı törətdikləri qanlı cinayətlər öz dəst-xəttinə, coğrafi əhatəsinə və qəddarlıq dərəcəsinə görə bu qəbildən olan hadisələr sırasında daha çox seçilir.

Dünyanın vəhşi, ən qəddar milləti sayılan erməni daşnaklarının 1918-ci ildə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən qədim Oğuz yurdu sayılan Qərbi Azərbaycanda dinc əhaliyə qarşı törətdikləri vandalizm aktı məhz belə cinayətlərdən biridir.

1917-ci ilin iyun ayında Türkiyə erməniləri şeytan cildinə girmiş, hər an türkün kürəyinə qılınc sancmaq iddiasında olan Stepan Şaumyanı özlərinə başçı seçmişlər. Lenin isə 1917-ci ilin 28 dekabrında dekret qəbul edib erməniləri müsəlmanlardan müdafiə etməyə şərait yaratdı. Şaumyan özü türkiyəli Hamazaspın komandanlığı ilə 2500 nəfərlik diviziya yaradaraq Bakıda, Bakıətrafı kəndlərdə, həmçinin Qərbi Azərbaycanda on minlərlə azərbaycanlını xüsusi amansızlıqla qətlə yetirdi.

1918-ci ildə indiki Ermənistanın 575 min nəfər müsəlman əhalisi vardı. Andronikin qoşunu 1918-ci ilin yazında Vedi rayonunun Qədirli, Qaraxaç, Birəli, Şahablı kəndlərinin sakinlərini damlara doldurub yandırdılar. Andronikin türk qanına susayan qoşunu Naxçıvandan keçib Zəngəzur zonasında Sisyan, Qafan rayonlarından olan azərbaycanlı kəndlərini dağıdıb dinc əhalini qəddarlıqla məhv etdi. Sisyan rayonunun Urud, Darbas, Ağudi, Vacudu, Şükür, Məlikli, Şəki və digər kəndlərinin sakinlərini damlara doldurub yandırdılar. Həmin günlərdə Qafan rayonunun Oxçu kəndinin əhalisinin başına gətirilən faciə barədə Gəncə qubernatoruna 11 dekabr 1918-ci il tarixdə 300 nömrəli teleqramla xəbər verilmişdi. Teleqramda deyilirdi:

*"Zəngəzur qəzası rəisinin məlumatına görə dekabrın 19-da Andronikin dəstəsi yerli ermənilərlə birlikdə Kığı dərəsində müsəlmanları qırırlar".*

Cəbrayıl-Zəngəzur zonasının qəza rəisi Namaz Əliyevin teleqramında isə göstərilirdi ki, dekabrın 10-da ingilis, fransız, ermənilər müsəlman kəndi olan Şabadinə və bir neçə başqa kəndlərə hücum etdilər. Bir neçə kəndin kişilərini barışıq adı ilə Oxçu kəndinə çağırıb böyük bir dama doldurub, neft tökərək yandırmış, bu acı mənzərəni sevinclə seyr etmişlər.

Andronikin qəddar, qaniçən quldur dəstəsi 1918-ci ildə Zəngəzur zonasında yüzdən çox azərbaycanlı kəndini talayıb, dağıdıb, günahsız əhalisini yandırmışlar.

Özünü çox məharətlə bolşevik siması altında gizləməyi bacaran, əslində "Daşnak" partiyasının ən fəal üzvlərindən olan Stepan Şaumyanın göstərişi ilə Dro Qanayanın müsəlman qanına susayan terrorçu dəstəsi İrəvanətrafı kəndlərə — Axta, Gərni rayonlarına, Silikyanın diviziyası Bayazit, Qaranlıq, Basarkeçər və Qaraqoyun dərəsi zonasında hücuma keçdilər. Dronun dəstəsi Axta rayonunun Təkərli, Dərəçiçək, Gümüş və başqa bir neçə kəndin əhalisini vəhşiliklə qətlə yetirmişlər.

Erməni daşnakları Kənəkir rayonunun indiki İrəvan şəhərini və İrəvanətrafı rayonları su ilə təmin edən Qırxbulaq zonasında olan 40 kəndin əhalisini tamam məhv etmiş, bir nəfər olsun belə salamat qalan olmamışdır.

1918-ci ildə İrəvandakı qırğın zamanı şəhərin sakinləri qaçıb Göy məscidə dolmuşdular. Azərbaycanlılardan ibarət dəstələr silahlı qaydada məscidin hər tərəfini müdafiə edirdilər. Qəddar, vəhşi ermənilər Uluxanlı kəndinin adamlarını Azərbaycana gedən qatarın 4 vaqonuna doldurmuş, elə vaqonda da hamısını qırmışlar.

1918-ci ildə kütləvi qırğınlar Dərələyəzin Paşalı (Əzizbəyov) rayonunun Kotanlı, Her-her, Bulaqlar, Çaykənd, Terp, Göşbək, Sofulu kəndlərində, Yeğeknadzor rayonunun Həsənkənd, Sallı, Qışlaq, Hors, Ələyəz, Qovşuq, Ayısəsi, Qabaxlı, Nəbilər, Alxan, Təkəsli, Gülüdüz kəndlərində də olmuş, Dronun qaniçən dəstəsi müsəlman yaşayan ərazilərdə hansı müsibətlər törətməmişlər?

1918-19-cu illərdə ermənilər Vedi rayonunun Millidərə zonasında bir sıra vəhşiliklər törətmiş, ermənilərin Aiqink, Bayburt, Əlmərdan kəndlərini qırmağa başlayacaqlarını eşidən Kotanlı, Şiyaqub, Körpükənd sakinlərinin bir hissəsi öz canlarını erməni daşnaklarından qurtarmaq üçün dağ yolları ilə Vedibasara qaçıb Abbasqulu bəyə sığınmışdılar. Abbasqulu bəyin yollara düzdüyü silahlı dəstələr ermənilərə ağır zərbələr vurub, dinc əhalinin xilasına şərait yaratdı.

Ermənilərin azərbaycanlılara qarşı törətdiyi qanlı cinəyətləri sadalamaqla qurtarmaq olmaz. Ermənilər Qarsda 17 azərbaycanlını Başgedən stansiyasında qatarın böyründən asıb Gümrüyə göndərdilər. Mənzilbaşına çatanda azərbaycanlıların ancaq dirsəkləri qalmışdı. Qadınları çılpaqlayıb, dama doldurub yandırdılar. Bayazitin Ağzıbir, Ağqala, Bığlı kənd camaatı qışın boranlı-çovğunlu günlərində çılpaq halda buzlu Göyçə gölünə doldurdular vəhşi erməni cəlladları.

1918-ci ilin Novruz bayramı günlərində diviziya komandiri, polkovnik Silikyanın terrorçu, azğınlaşmış quldur dəstəsi Stepan Şaumyanın göstərişi ilə Göyçə mahalının - Basarkeçər rayonunun ərazisinə daxil olur. Ermənilər Sarınər dağının ətəyində yerləşən Şişqaya kəndinə daxil olarkən azərbaycanlıların müqaviməti ilə üzləşir.

Daşnaklar hiylə işlədərək Şişqaya kəndinin sakinlərini barışıq adı ilə böyük mal tövləsinə toplayırlar. Sonra isə qapılar qıfıllanır və tövləyə od vururlar. Tək-tək insanlar bu işgəncə və faciədən sağ qalır.

Ermənilər Kiçik Məzrə və digər kəndlərdə də yerli əhaliyə olmazın divanını tutur, diri-diri insanları su quyusuna doldururlar. Novruz bayramı günlərində Novruz tonqalları darmadağın edilir.

1918-ci ilin martında Silikyanın quldur dəstəsi 22 nəfərlə Basarkeçər rayonunun ən böyük kəndi olan zoda daxil olur. Zod tarixən pəhləvan cüssəli, qorxmaz oğulları ilə tanınırdı. Ermənilər tərəfindən Səməd ağaya təklif olunur ki, 10 gün müddətində erməni ordusuna xeyli miqdarda taxıl, ot versinlər. Səməd ağa Məşədi İsa, Qlava Balı, Kor Tanrıverdi və bir sıra el ağsaqqalları ilə bu məsələni tələm-tələsik müzakirə edirlər. Belə qərara alınır ki, bu qədər taxıl, ot vermək mümkün deyil, ikinci taxıl verilməzsə, erməni daşnakları dərhal hücuma keçib silahsız insanları qıracaqlar. Buna görə də çıxış yolu təkcə budur ki, imkan tapıb Silikyanın terrorçu dəstəsini qırmaq lazımdır.

Elə də etdilər. Əvvəlcə ermənilər üçün çöngə kəsilib geniş süfrə açıldı. Onların sərxoş olmaları üçün süfrəyə növ-növ şərablar qoyuldu. İçkidən gözləri qızmış ermənilər mahnı oxuyur, hətta əl qaldırıb rəqs edirdilər. Beyinləri o qədər qızmışdı ki, sərxoş daşnaklar silahlarını qoyduqları yeri də unutmuşlar. Vaxt itirmək olmazdı, bir göz qırpımında Səməd ağanın işarəsi ilə açıq qoyulmuş qapı və pəncərələrdən qəflətən güllələr açılır. Bu atışmada Səməd ağanın bacısı oğlu Yunis bəy öldürülür. Polkovnik, Stepan Şaumyanın sağəli Silikyan və onun quldur dəstəsi tamam məhv edilir və silah-sursatı ələ keçirilir. Ermənilər bu hadisəyə kimi Çamırlı, Mollalı, Yuxarı Zağalı, Qızılvəng, Qanlı kəndlərini talayıb, əhalisini qırmış, qadın, qoca, cavanları işgəncə ilə qətlə yetirmişlər.

Ermənilərin başda Silikyan olmaqla Zod kəndində tələyə düşməsi Göyçədə razılıqla qarşılandı və qonşu Kəlbəcərdən bir qrup atlılar Səməd ağaya göz aydınlığına gəldilər.

Zod kəndində Silikyanın terrorçu dəstəsinin qırılması daşnakları müəyyən qədər zəiflətsə də, onlara Stepan Şaumyanın göstərişi ilə əlavə qüvvə göndərildi. 1919-cu il mart ayının əvvəllərində daşnaklar Göyçədə təzədən hücuma başladılar. Basarkeçərin azərbaycanlı əhalisini ermənilərdən yaxa qurtarmaq üçün böyük itki verərək Gədəbəy və Kəlbəcər istiqamətində qarlı yollar aşaraq Azərbaycana pənah gətirdilər.

Kəlbəcər yollarında neçə-neçə günahsız insanlar borana-çovğuna düşüb, qurd-quşa qismət oldu. El arasında həmin yerlər "Sümüklüdərə" adlanırdı.

1918-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə daxil olmuş teleqramda deyilirdi ki, 25 minlik erməni ordusu İrəvandan gələrək 8 müsəlman kəndini mühasirəyə almışlar. 200 nəfərdən çox Araz çayını keçərək həlak olmuşdur. Göyçə mahalının Qaraiman kənd sakinləri Allahverdi Oruc oğlu və Rüstəm Məşədi Hüseyn oğlu Gəncəyə gəlmiş və göyçəlilərin başına gətirilən müsibətlərdən qubernatora belə danışmışlar: *"Fillimov və Nişanovun başçılıq etdiyi terrorçu dəstə gecə Qızılvəng, Subatan və Zağalı kəndlərini mühasirəyə almış, kişiləri pristavın yanına çağırmaq bəhanəsi ilə tövləyə salmış, özləri isə kəndləri qarət etmişlər. Çamırlı kəndində 4 kişi və 6 qadın vəhşicəsinə öldürülmüşlər. Şərab kəndinin bütün kişilərini yandırmış və körpə uşaqları işgəncə ilə təndirə doldurmuşlar".*

A.Lalayanın yazdığına görə, daşnak başkəsənlərdən biri öz "şücaətini" belə təsvir edirdi. "Mən heç bir şeyə fərq qoymadan Basarkeçərdə türk əhalisini məhv etdim. Hərdən gülləyə heyfim gəlir. Bu itləri öldürməyin ən doğru yolu döyüşdən sonra bütün sağ qalanları toplayıb onları quyuya doldurmaq, onların bu dünyada qalmamaları üçün üstlərinə ağır daşlar tökmək lazımdır. Mən belə də etdim: bütün kişi, qadın və uşaqları quyuya doldurub üstünü daşla doldurdum".

Ümumiyyətlə, 1818-19-cu illərdə erməni daşnakları Qərbi Azərbaycanın Vedibasar, Zəngibasar, Göyçə, Amasya, Zəngəzur, Dərələyəz və digər qədim oğuz ellərində ağlasığmaz talanlar, qanlı cinayətlər törətmişlər.

Stepan Şaumyan, Andronik, Dro və digər daşnakların fitvası ilə minlərlə müsəlman əhalisi işgəncələrə məruz qalmışlar. Ermənilərin amansız qətllərinin qarşısını Azərbaycana köməyə gəlmiş türk əsgərləri aldılar.

Ulu öndərimiz Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla ilk dəfə dövlət səviyyəsində bu qətliama siyasi qiymət verilib. Bildirilib ki, hər il martın 31-ni Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilməklə, bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq-aşkar həyata keçirilən soyqırımın qurbanlarının xatirəsini ehtiramla anırıq.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**

# 31 Mart soyqırımı: baş tutmayan işğal

**1918-ci ilin martı. Bakıda Sovet Rusiyasının idarəetməsində olan Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyanın bilavasitə rəhbərliyi ilə həyata keçirilmiş bu soyqırımın mahiyyətinə ermənilik sistemi nöqteyi-nəzərindən baxmaq çox şeyi aydınlaşdırır. Bu silahsız və günahsız insanların qətliamının təfərrüatı barədə mətbuatda xeyli məlumatlar dərc edilib. Lakin bizi düşündürən ermənilərin hər zamanda olduğu kimi, dünya düzəninin dəyişdiyi XX əsrin əvvəllərində də böyük siyasi qüvvələrə arxalanaraq bu qətliamı ən qəddar vasitə və üsullarla törətməsi və cəzasız qalmasıdır. Araşdırma bizə ermənilərin və onların dəstəkçilərinin, tərəfdarlarının hər bir sözünün, hər bir addımının, təxribatının, terrorunun arxasındakı planı görmək və hər bir vətəndaşın daim ayıq olması və iqtidarla sarsılmaz birliyi üçün lazımdır. Bu etnik təmizləmənin hədəfi və ermənilərin yüz illər boyu davam edən mifik "Böyük Ermənistan" ideyasının reallaşdırılması üçün hər bir tarixi dönəmdə bu cür qırğınların və soyqırımların hədəfləri nə idi? Tarixi xronologiyanı o dövrdəki dəyişən dünya düzəninin siyasi və iqtisadi maraqları ilə bağlamasaq, həmin proseslərin təkrarı kimi ərazilərimizin 20 faizinin işğalı, ermənilərin törətdikləri soyqırım, etnik təmizləməyə, terrorlarına və zorakılıqlarına, diversiyalarına, qəddarlığına dünyanın aparıcı dövlətlərinin və beynəlxalq nüfuzlu qurumlarının siyasi-hüquqi qiymət verməmələri və göz yummalarının səbəblərinin araşdırmasaq qənaət əldə etməsək həqiqət ortalığa çıxmayacaq və hər bir qırğın milli münaqişə kimi ötüb keçəcək.**

Erməni tarixi sənədlərinə görə Osmanlı Türkiyəsində dövlət yaratmaq üçün danışıqlar aparmağa görəvləndirilmiş İsrail Ori Rusiya çarı I Pyotrun yanına gəlir, cənubu işğal etməkdə israrlı olan imperatora bu təcavüzdə öz xidmətlərini, əvəzində isə ermənilərin həmin ərazilərə toplum halına köçürülməsini, daha sonra isə onlara dövlətçilik qurumu verilməsini istəyir. Beləliklə, ermənilər o zamandan bu günə qədər Rusiyanın strateji partnyoruna çevriliblər. 1769-cu ildə Movses Sarafyan Rusiyanin xarici işlər kollegiyasına Azərbaycanı işğal etməyə dair planını verir. Zaqafqaziyaya kəşfiyyat xarakterli təcavüz və basqınlar başlayır. "Nizami" elmi-araşdırma bürosu rus generalissimusu A.V.Suvorov-Ruminskinin 680-dən artıq məktubunu tədqiq etmişdir. Suvorov Xəzəryanı bölgələri işğal etmək üçün buralarda yaşamış, yerli, xüsusən də türk dilini öyrənmiş, hərbi xəritələr hazırlamışdır. Bu işdə onun yaxın köməkçiləri ermənilər olmuşlar. O, Xasdadyan Boqdan Vasilyeviç barədə yazır ki, "... Asiya şəraitini və xüsusiyyətlərini yaxşı bilir". Suvorov bu ermənini özünün adyutantı edir və Boqdan general-mayor rütbəsinədək yüksəlir /Bax: "18 əsr rus xəritələrində erməni əli: "Sirlər açılır" qəz., 1-15 oktyabr 2001-ci il/. Bu rus hərbçisi islam dünyasının qatı düşməni olub. O hətta Məkkəni, Məhəmməd /ə.s./ peyğəmbərin qəbrini belə ələ keçirmək arzusu ilə yaşayıb /Bax: "İkicə kəlmə generalissimus Suvorov barədə", yenə orada/. Beləliklə, aydın olur ki, bir sıra qədim Azərbaycan ərazilərinin adları nə üçün və necə erməniləşib. Təbii ki, bu xəritələr rəsmi dövlət sənədi kimi dünyaya yayıldıqda artıq, aydındır ki, Boqdanın yox, bu isə dövlət görəvlisi Suvorovun adıyla hallanacaq, etibarlı mənbə kimi tanınacaq.

Zaqafqaziyanın işğalında çar Rusiyası ermənilərin xidmətindən kifayət qədər yararlana bilir. Beləliklə, 1828-ci ildə Şimali Azərbaycan işğal edilir, ermənilər Türkiyədən, İrandan və yaxın Şərqdən ölkəmizə kütləvi şəkildə köçürülür. Ermənilərin planına uyğun olaraq ən kütləvi şəkildə İrəvanda, Qarabağda yerləşdirildilər, çünki buradan onlar iddia etdikləri Türkiyə ərazisindəki ermənilərlə iş birliyi qura biləcək, Qarabağda çoxalaraq oranı da ələ keçirəcək, sonra isə Xəzərə və Cənubi Azərbaycana doğru yürüyəcəkdilər, bu yerləşdirmə imperiya qüvvələrinin türk və müsəlman dünyasını parçalamaq və işğal etmək strategiyasına uyğun gəlirdi. Diqqət edin, istər Türkiyədə, istər Şimali, istərsə də Cənubi Azərbaycanda maraqlı qüvvələrin köməyilə ermənilərin baş vurduqları bütün terror, təxribat, qırğın və soyqırım hadisələri Şərqi ələ keçirmək istəyən bütün beynəlxalq dövlət və qüvvələrin mənafeynə xidmət edir, ermənilik sisteminin "Böyük Ermənistan" mifini reallaşdırmağa istiqamətlənmiş yüz illər boyu bu mənafelərin reallaşmasına hopdurulub.

Bəs Rusiyanın Azərbaycana köçürdükləri ermənilər ruslarla necə qonşuluq edirdilər? V.L.Veliçko "Kavkaz" /S.-Peterburq-1904/ kitabında yazır ki, ermənilər Tərtərə köçürülmüş rusları içməli su mənbəyinə buraxmırdılar. Əllərində xəncər yolları kəsmişdilər. Çaya isə leş və peyin və cürbəcür zibil doldurmuşdular. Dəhşətli xəstəlik başlandı. Adamlar diri-diri çürüyür, bədənlərini irinli yaralar bürüyür, əzabdan ağıllarını itirirdilər. Bu dəhşət qubernatora çatanda Tərtərə erməni həkimi göndərdilər. O isə xəstələrə dərman vermək əvəzinə - "rus itləri, siz hamınız gəbərəcəksiniz, buradan rədd olun", - məsləhətini verdi /səh.213/. Bu faktları ona görə yazırıq ki, bu gün Rusiyada işğalçı və soyqırım müəllifləri olan Ermənistanın kifayət qədər geniş və çoxsaylı tərəfdarları vardır. Erməniliyin vaxtı çatan kimi onların da əleyhinə işləyəcəyini, hazırda isə baş nazir Paşinyanın o mövqeyə çox yaxın olduğunu, həm Qərbin, həm də Rusiyanın siyasi maraqlarının özəyinə öz hədəflərini yerləşdirdiklərini ictimaiyyət bilməlidir və bu böyük qüvvələr mənafeləri naminə onları dəstəkləyirlər. Ermənilər əsl dindardılar, yoxsa teokrat - yəni siyasət pərdəsinə bürünmüş siyasətçi! V.L.Veliçko yazır ki, ermənilərin xristianlığı da müəmmalıdır. 301-ci ildə müqəddəs Qriqoriy Prosvetitel çar Trdata təbəələrini bu dinə qəbul etdirməsi üçün müraciət edir. O da öz təbəələrini xaç suyuna çəkdirir. Lakin çox keçmir, özü müəmmalı şəkildə ölür. Deyilənə görə yeni xristianlar onu zəhərləyiblərmiş. IV əsrdə katolikos Nerses xristianlıq ideyası üçün yox, siyasi mənafe üçün xristianlığı qəbul edir. Çarla siyasi mübarizəyə girir və nəticədə həlak olur. Çar II Tiqran erməniləri Yulian Otstupnikin şəklinə ibadət etməyə məcbur edir. Lakin VI əsrdə fars şahı Xosrovun mənafeyinə uyğun olaraq xristian-pravoslav Xalkidon kilsəsinin formulundan monofizitizmə keçir. Həmin kilsə onları bu xəyanətə görə 451-ci ildə ittiham edir. Ermənilər bununla xristianlığı parçalamaq, Bizansı zəiflətmək, Sasanilərin köməyilə nə isə qazanmaq ümidində idilər. Məhz ermənilər o gündən bu günədək özlərinin semitik instinktlərinə cavab verən teokratik dövlətlərini möhkəmləndirirlər. Buna sübut kimi hazırda Gürcüstandakı 460-dan çox alban kilsələrinə onların iddialarını dəlil kimi göstərə bilərik. Erməni kilsələri dini fəaliyyətdən daha çox siyasi fəaliyyətlə məşğuldurlar. Beləliklə, onlar dövlətlərin içində dərin dövlət yaratmış olublar /səh.75-81/. Monofizitizm ermənilərə nə verirdi? Aydındır ki, İsa peyğəmbər İncildə Allahla insan arasında vasitəçi - Məsih, Quranda isə yaradılan - göndərilən rəsuldur. Monofizitizmdə isə bəşəri başlanğıc və ilahilik birləşirdi. Bu nəstəranilik cərəyanı idi. İstədikləri addımı atmağa haqq qazandırırdı. Yalan, qəddarlıq, basqınlar, soyqırım, xəyanət və s. xarakterık hallar onlar üçün təbii idi və ermənilərə Bizans və ya hər hansı bir dövlət daxilində separatizm siyasəti aparmağa imkan verirdi.

Çar Rusiyasında fevral burjua və sosialist inqilablarında ermənilər yenə həmin tarixi xəyanəti edərək torpaq və dövlət qazandılar. Daşnaklar bolşeviklərin ideoloji düşmənləri kapitalistlərə, bolşevik-ermənilər isə kapitalistlərin düşmənləri bolşeviklərə "xidmət etməklə" əslində birlikdə "Böyük Ermənistan" ideyasını həyata keçirirdilər! 1918-ci ildə ingilislərin yardımı ilə kapitalist Ermənistanı yaranır, 1917-ci ilin noyabrında Rusiyada sosialist inqilabı baş verən kimi, V.İ.Lenin S.Şaumyanı Qafqazın müvəqqəti fövqəladə komissarı təyin edir. 1917-ci ilin 29



dekabrında Lenin 20 saylı dekret imzalayır. Proletar dahisi "Türkiyə Ermənistanında" erməni dövlətinin yaranması üçün hər cür tədbir və yardım barədə göstəriş verir. Bu işi görmək həm bolşevik və həm də daşnak S.Şaumyana həvalə edilir. Bu o zaman idi ki, ermənilər Türkiyədə çox dəhşətli qırğınlar törətməkdə davam edirdi. 1918-ci ilin yanvarında isə Cənubi Azərbaycanda Aysor Milli Şurası yaradılır. Məqsəd burada xristian dövləti yaratmaq idi. 30 minlik erməni-aysor birləşməsi hücuma keçərək 10 minlərlə günahsız mülki azərbaycanlını qətlə yetirir. İstər ermənilərin, istərsə də müstəmləkə siyasəti yürüdən imperiyaların əllərində əsas bəhanə "xalqların öz müqəddəratını təyin etmək" ideyası olub. Lenin isə buna "proletar beynəlmiləlçiliyi"ni də qoşaraq başqa keyfiyyətli imperiya - "Dünya proletar birliyi" yaratmaq məqsədi güdürdü. 1920-ci illərin əvvəllərində həmin "beynəlmiləlçi" Rusiya Azərbaycanın taleyi ilə oynayaraq Zəngəzuru Ermənistana peşkəş edir və Qarabağda ermənilərə ikinci dövlət qurumu - muxtariyyət verir. SSRİ-nin mövcud olduğu 70 ildə Azərbaycanın Xalq Cümhuriyyəti dövründə malik olduğu 114 min kvadratkilometr ərazi 86 minə qədər azalır. İmperiya rəhbərliyinin dəstəyi ilə 1988-ci ildə Dağlıq Qarabağda başlanan separatizm hərəkatı və Ermənistanda bu hadisələrdən bir qədər əvvəl başlanan qəddar etnik təmizləmə, ərazilərimizin bu dövlətin hərbi qüvvələrinin müdaxiləsi nəticəsində torpaqlarımızın daha 20 faizi də işğal olundu. Həqiqət budur ki, Ermənistana imperiya mərkəzi və xarici qüvvələr tərəfindən hərbi-siyasi dəstək olmasaydı bu işğal baş tutmazdı. Dünyada siyasi nüfuzunu və iqtisadi mənafelərini təmin etmək məqsədi üçün böyük qüvvələrin ermənilik sistemini bir maşa və alət kimi istifadə etdikləri həm tarixi, həm də müasir dəlil və faktlara görə artıq sübuta ehtiyacı olmayan aksiomdur.

1918-ci il 31 Mart soyqırımında Bakıda qətlə yetirilənlərin sayı haqda müxtəlif rəqəmlər deyilir. Bütün bunlar mart qırğınının nə qədər dəhşətli olduğunu çox aydın şəkildə göstərir. Dəlil kimi, deyək ki, ingilis arxivlərini öyrənən türk tarixçisi Salahi Sonyel 1918-ci ilin martında 8-12 min, ABŞ tarixçiləri C. və K.Makkartilər isə 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlmanı öldürdüyünü ve şəhərin türk əhalisinin yarısının didərgin düşdüyünü yazırlar. Bəzi mənbələrə görə, həmin vaxt 60 min Azərbaycan türkü qaçqına çevrilmişdi. Bu proses ermənilərin tarixin ən mühüm dönəmlərində yaranan şəraitdən, böyük siyasi qüvvələrin maraqlarından sui-istifadə edərək öz mənafelərini necə qeyri-insani üsullarla və beynəlxalq hüquq normalarını tapdalayaraq reallaşdırmağa çalışdıqlarını aydın göstərir. İngilis Peter Hopkirk "Bitməyən oyun" adlı əsərində bu regionda baş verən siyasi oyunlara aydınlıq gətirir və yazır ki, ingilislər alman ve türklərin Hindistana gedən yolunu kəsmək, ruslar zəngin Bakı neftinə sahib çıxmaq, ermənilər isə Şərqdə və Qərbdə zəngin Azərbaycan torpaqlarına sahib olmaq istəyirdilər. Məsələn, proletar inqilabçısı V.İ.Lenin yazırdı ki, bizə Bakı və Xəzərətrafı rayonlar lazımdır. Bu plan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, dünyada de-yure tanınması və xalqımızın görkəmli siyasi xadimlərindən olan Nəriman Nərimanovun siyasi müdrikliyi nəticəsində baş tutmur. Göründüyü kimi, istər 1905-ci il, istər 1918-ci il, istərsə də 1988-ci illərdə ermənilərin törətdiyi soyqırımları dünya düzəninin dəyişməsi zamanında erməniliyin imperiya qüvvələrinin əlində vasitə olması nəticəsində törənib. Biz bir xalq olaraq bu tarixi həqiqətləri, ermənilərin bu gün də davam edən torpaq iddialarını, irqçi, milli eqoist, neofaşist təbliğatlarını, ermənilik sisteminin fəaliyyətini və törətdikləri, yenidən törədəcəkləri fəlakətləri nəzərə almasaq, daha ağır faciələrlə qarşılaşa bilərik. Biz hər an yadda saxlamalıyıq ki, həmin 1918-ci ildə minlərlə günahsız dinc, mülki əhalini yalnız müsəlman və türk olduqlarına görə məhv etmiş erməni Dro və Njdeyə, Qarabağ müharibəsində məhv edilmiş erməni beynəlxalq terrorçusu Monte Melkonyana və başqalarına Ermənistanda heykəl qoyulmuş, dərsliklərə salınmış, onlardan film çəkilmişdir.

SSRİ-nin dağılmasında da həmin separatizm siyasətinin rolu bütün çılpaqlığı aşkardır. Çünki bu dağılma olmasaydı Ermənistan torpaq işğal edə bilməzdi. Düzdür həqiqəti deyən, əsl tarixi ortaya qoymaqla Osmanlı imperiyasında yüksək mövqelərdə təmsil olunmuş erməniləri misal gətirən, qədimdən-qədim olan həqiqi Azərbaycan tarixini dəlillərlə ictimaiyyətə söyləyən Filipp Ekozyans kimi doğruçu erməni ziyalıları çox az da olsa vardır. Lakin çox təəssüf ki, Ermənistanda belə realistlərə fikir verən yoxdur. Əksinə bu gün Dağlıq Qarabağ danışıqlarında yeni format təklif edilir ki, bu da qəbuledilməzdir.

Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində münaqişənin həllində dövlətimizin prinsipial mövqeyinin dəyişmədiyi barədə deyib: "Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsaında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqlar formatının dəyişdirilməsi ilə bağlı məsələlər qaldırıb. Ancaq Azərbaycan bunu qəbul edə bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri - Amerika, Fransa və Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır". Bu sözlər bir daha Azərbaycan rəhbərliyinin siyasi xəttinin doğru olduğunu və addımların düzgün atıldığının göstəricisidir. Bu il martın 29-da Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla ATƏT-in Minsk qrupu həmsədrləriinin təşəbbüsü ilə görüş keçirildi. Bu görüşdən əvvəl ABŞ-dan informasiya yayıldı ki, "Azərbaycan ərazilərini hərbi yolla azad etmək istərsə ona hərbi yardım və s. dayandırılsın, Ermənistan və Dağlıq Qarabağ respublikasına maliyyə yardımı (100 milyon dollar) edilsin" təklifi vardır. Rusiyadan da, Avropadan da münaqişənin yalnız sülh yolu ilə həlli barədə rəylər eşidildi.

Ermənilər öz məqsədləri ilə fövqəldövlətlərin və maraqlı qüvvələrin mənafelərini necə uzlaşdırırlar? Son dərəcə xarakterik bir nümunəni oxucuların diqqətinə çatdıraq. Moskvada dərc olunan "Komsomolskaya pravda" qəzeti 1991-ci il 17-19 tarixli saylarında müxbir Y.Lesotonun (yarırus-yarıerməni -A.C.) "Armeniya bez Rossii (Rusiyasız Ermənistan - A.C.)" başlıqlı məqaləsində yazır ki, "Rusiya ermənilərin ənənəvi xilaskarıdır, lakin o, ermənilərin fikrini soruşmadan özü onların sərhədini dəyişdirib...

Bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çox ciddi səyi sayəsində Silahlı Qüvvələrimizin MDB üzvləri sırasında Rusiyadan sonra güclülər arasında ikinci, dünyada isə əllinci yerdədir. Bu həqiqəti müvafiq ekspertlər deyir. Müasir Azərbaycan regionun güclü, yüksək beynəlxalq siyasi nüfuza, qüdrətli iqtisadiyyata və orduya, əsl müstəqilliyə, öz torpaqlarını azad edəcək gücə malik ölkədir.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ BAĞLI TƏDBİRLƏR

## Gəncə

Azərbaycan Dövlət Aqrar Universitetində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirilib. İlk öncə soyqırımı qurbanları bir dəqiqəlik sükutla yad edildi. Sonra, universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov əhatəli çı-



xış edərək qeyd etdi ki, Azərbaycan torpaqları hesabına dövlət quran ermənilər tarixin bütün mərhələlərində, zaman-zaman misli görünməyən qəddarlıqla, xalqımıza qarşı insanlığa yaraşmayan qanlı əməllər törətmişlər. Təkcə, 1918-ci ilin mart-aprel aylarında ermənilərin Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Muğan və Lənkəranda törətdiyi soyqırımı nəticəsində 50 mindən artıq mülki azərbaycanlı qətlə yetirilib, 10 minlərlə insan yurd-yuvasından didərgin salınıb. Bakıda isə 30 min nəfər xüsusi qəddarlıqla öldürülüb. Yalnız, ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla, 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildikdən sonra, hər il ölkəmizdə, müxtəlif anma mərasimləri, xatirə tədbirləri keçirilir, erməni soyqırımının bu dəhşətli cinayəti qətiyyətlə pislənir. Eyni zamanda uzun illər bundan əvvəl baş verən hadisələr barədə həqiqət açıqlanır, xalqın yaddaşı təzələnir. Hər kəs öz tarixi köklərinə, mənəvi-əxlaqi dəyərlərinə, vətənə məhəbbət duyğularına qaytarılır. Bu gün ümummilli liderimizin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev ölkəmizin milli maraqlarının təmin olunması, vətəndaşlarımızın ümumi məqsəd və mənafe naminə birləşməsi, ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində çox uğurlu siyasət aparır.

Çıxışının sonunda universitetin rektoru, tam əminliklə bildirdi ki, xalqımızın başına gətirilən tarixi faciələri unutmadan, onlardan düzgün nəticə çıxarmaqla, respublika Prezidenti cənab İlham Əliyev ətrafında sıx birləşərək, ölkəmizin ərazi bütövlüyü bərpa edəcək, doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımız öz ata-baba torpaqlarına qayıdacaqlar.

Kafedra müdiri, professor A.Bayramov XIX əsrin əvvəllərindən başlayaraq ermənilər tərəfindən düşünülmüş şəkildə azərbaycanlılara qarşı törədilən soyqırımı nəticəsində yüzlərlə yaşayış məntəqəsinin dağılmasından, yüz minlərlə azərbaycanlının qətlə yetirilməsindən, Azərbaycanın başqa bölgələrində də etnik təmizlənmənin xüsusi qəddarlıqla həyata keçirilməsindən danışaraq bildirdi ki, azərbaycanlıların kütləvi şəkildə qırılmasını, repressiyalara məruz qalmasını XX yüzilliyin dünya tarixində ən qanlı səhifələrdən biri hesab etmək olar.

Anım mərasimində çıxış edən kafedranın müəllimi Səbinə Əlizadə, tələbələrdən Güldəstə Qocayeva, Oktay Məmmədzadə, Səlbinaz Məmmədova və başqaları faciənin tarixi köklərindən danışaraq bildirdilər ki, azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilib. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilib, kəndlər yandırılıb, milli mədəniyyət abidələri dağıdılıb, məhv edilib, ümumilikdə bəşər tarixində misli görünməyən vəhşiliklərə baş vurulub. 31 Mart soyqırımına hüquqi-siyasi qiymət Azərbaycan Dövlət Müstəqilliyinə qovuşduqdan sonra, ulu öndər Heydər Əliyevin Mart hadisələrinin 80-ci ildönümü ərəfəsində - 26 mart 1998-ci il tarixli Fərmanı ilə verilmişdir. Bu Fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli qan yaddaşının qorunması baxımından bir növ proqram sənədidir.

* * *

Azərbaycan Texnologiya Universitetində (UTECA) 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününün 101-ci ildönümünə həsr olunmuş anım mərasimi soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunması ilə başladı. Tədbiri giriş sözü ilə açan UTECA-nın rektoru, professor Akif Süleymanov 31 mart soyqırımının tarixi barədə məlumat verərək bildirdi ki, mart hadisələrindən yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə siyasi qiymət verilib və 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib.



Çıxış edənlər, ermənilərin xalqımıza qarşı tarixboyu soyqırımı həyata keçirdiyinin sübuta yetirildiyini diqqətə çatdıraraq vurğuladılar ki, ermənilər uydurma "böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün tarixi şəraitdən və himayədarlarının dəstəyindən istifadə edərək, regionu azərbaycanlılardan və qeyri-millətlərdən təmizləmək, yalnız ermənilərin yaşadığı monoetnik bir dövlət yaratmaq istəyiblər. Azərbaycanın tarixi torpaqlarında — Dağlıq Qarabağda və ətraf rayonlarda törədilmiş soyqırımı cinayətləri, işğal bu prosesin davamıdır. Görünən odur ki, zaman keçsə də, erməni siyasətinin, terrorunun və vəhşiliklərinin mahiyyəti dəyişməyib. Xocalıda amansızlıqla törədilmiş dəhşətli soyqırımı deyilənlərin əyani sübutudur.

Tədbirdə 31 mart soyqırımından bəhs edən videoçarx nümayiş etdirildi. Sonda UTECA tələbələri soyqırımı həqiqətləri ilə bağlı şeirlər səsləndirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Xarici İşlər Nazirliyi 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Bəyanatda deyilir ki, 31 mart tarixi 1918-ci ilin martında ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş qanlı qırğın qurbanlarının xatirəsinin anıldığı Azərbaycanlıların Soyqırımı Günüdür. 1918-ci ilin mart qırğınları millətçi ermənilər tərəfindən azərbaycanlılara qarşı irqi ayrı-seçkilik və etnik təmizləmə siyasəti əsasında əvvəlcədən hazırlanmış və qəddarcasına həyata keçirilən siyasət idi.

"1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda xüsusi qəddarlıqla kütləvi qırğınlar törədilib və on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib. Rusiya bolşeviklərinin rəhbəri Vladimir Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin edilən, etnik erməni olan Stepan Şaumyan etiraf edirdi ki, azərbaycanlılara qarşı olan qırğınlarda Bakı Sovetinin 6000 və Daşnaksütyun partiyasının 4000 silahlı əsgəri iştirak edib.

Azərbaycanlılara qarşı törədilən soyqırımı Bakı ilə yanaşı, Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və Qars bölgələrini də əhatə etdi. 1918-ci ilin ilk beş ayı ərzində təkcə Qubada xüsusi vəhşiliklə 16000-dən artıq insan öldürüldü. Ermənilər, həmçinin Qubada yaşayan yerli yəhudi və ləzgilərə qarşı qətliam törətdilər. Quba rayonu ərazisində 2007-ci ildə aşkar olunmuş kütləvi məzarlıq ermənilərin törətdiyi qeyri-insani əməllərin əyani sübutunu təşkil edir", - deyə bəyanatda qeyd olunur.

Bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün 1918-ci ildə Fövqəladə İstintaq Komissiyası yaradıb, Komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görüb. Müxtəlif millətlərin, o cümlədən ruslar, yəhudilər, polyaklar, gürcülər və hətta ermənilər olmaqla, həmin dövrün ən yaxşı hüquqşünaslarının təmsil olunduğu Fövqəladə İstintaq Komissiyası sübutlar əsasında dinc əhaliyə qarşı müxtəlif cinayətlərə görə təqsirləndirilən 194 nəfər barəsində cinayət işi açıb və törətdikləri cinayətlərə görə Bakıda 24 və Şamaxıda təxminən 100 nəfər həbs olunub.

Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırıldı, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alındı. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verildi və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi.

Azərbaycanlıların Soyqırımı Gününün yad edilməsi keçmişdə və hazırda azərbaycanlıların qırğın və etnik təmizləmələrə məruz qalması barədə dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayır.

Sonda bəyanatda vurğulanır ki, 1980-ci illərin sonlarından etibarən Ermənistan Azərbaycana qarşı müharibəyə başlayaraq və ölkəmizin ərazilərini işğal edərək, Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində milyonlarla azərbaycanlının etnik təmizləməsini həyata keçirərək, çoxsaylı hərbi cinayətlər, insanlığa qarşı cinayət, eləcə də 1992-ci ilin fevralında Xocalı soyqırımı da daxil olmaqla, soyqırımı aktları törədərək mart qırğınını xatırladan siyasəti davam etdirir.

Mart qırğınının günahsız qurbanlarının xatirəsini anaraq, Ermənistanın Azərbaycan xalqına qarşı soyqırımı, bəşəriyyət əleyhinə cinayət, irqi ayrı-seçkilik və etnik təmizləməyə əsaslanan məqsədyönlü və davam edən siyasətini kəskin şəkildə pisləyir və bu qəbildən olan qeyri-insani cinayətlərin qarşısının alınması üçün Ermənistanın cəzasızlığına son qoyulmasının vacibliyini bir daha vurğulayırıq.

**AZƏRTAC**

# BMU-da anım tədbiri

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar olaraq Bakı Mühəndislik Universitetində anım tədbiri keçirilib. Tədbirdə universitetin rəhbər şəxsləri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Tədbir Dövlət Himninin səslənməsi ilə başlayıb, soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra tədbirdə 31 Mart soyqırımı hadisələrini əks etdirən sənədli film nümayiş olunub.

**Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov** çıxış edərək bildirib ki, XX əsrin, bəlkə də, ən susqun soyqırımı 1918-ci il mart ayının 31-də erməni daşnaklarının xalqımıza qarşı olan qətliamıdır. Ermənilər əvvəlcə Bakıda, sonra İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazaxda və Tiflisdə dinc mülki azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişlər. Erməni silahlı dəstələri İrəvan-Naxçıvan-Zəngəzur-Qarabağ və Qazax-Gəncə istiqamətində yerləşən yaşayış məskənlərinin azərbaycanlı əhalisini qırmış və deportasiya etmişlər.

Rektor qeyd edib ki, ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinə 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanında hərtərəfli hüquqi-siyasi qiymət verilmişdir. Fərmanda ermənilərin Azərbaycan xalqının başına gətirdiyi müsibətlər dünyaya bəyan edilmişdir. Bu tarixi sənəd Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da fundamental bir proqramdır.

Bu gün ölkə başçısı İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində güclü iqtisadiyyatımız və qüdrətli ordumuz formalaşıb. Bu da bizdə inam yaradır ki, yaxın gələcəkdə torpaqlarımız işğaldan azad olunacaq.

Daha sonra çıxış edən BMU-nun pedaqoji fakültəsinin müəllimi Ülvi Babayev tədbir iştirakçılarını salamlayıb və qeyd edib ki, xalqımız tarixi qəhrəmanlıqları ilə yanaşı, soyqırımlara da məruz qalıb. Biz gəncləri humanist, tolerant və elmi istiqamətdə tərbiyə edirik.

BMU-nun iqtisadiyyat və idarəetmə fakültəsi, dövlət və bələdiyyə idarəetməsi kafedrasının I kurs tələbəsi Ləman Şərifova çıxışında vurğulayıb ki, Azərbaycan xalqı, xüsusilə gənclər qanlı tarixi unutmamalı, möhkəm milli yaddaş formalaşmalı, onlar dəhşətləri törədənlərə qarşı mübariz ruhda böyüməlidirlər. Çünki "Erməni vəhşiliyini dünya miqyasında ifşa etmək üçün hələ görüləsi çox işimiz var".

**M.MİRZƏ,**
**"Respublika".**

# Kütləvi musiqi mədəniyyəti - dünən, bu gün, sabah?!

*"Estetik inkişafı olmayan ölkənin iqtisadi inkişafı qeyri-mümkündür".*
**Akademik L.S.Vıqotski.**

Qədim yunanların məktəblərində poeziya, riyaziyyat, musiqi, təsviri incəsənət və idman fənləri tədris olunurdu. Onlar üçün bu fənlərin hər birinin xüsusi əhəmiyyəti var idi. Göründüyü kimi musiqinin də bir fənn kimi, təlim prosesinə daxil edilməsinin böyüməkdə olan gənc nəslin inkişafına təsirini hələ qədim yunanlar başa düşürdülər.

"Musiqi tərbiyəsinin vəzifəsi - ilk növbədə musiqiçi deyil, insan yetişdirməkdir". Bu dahi ideyanın, mənalı və məntiqli sözlərin müəllifi böyük Ukrayna pedaqoqu, akademik V.A.Suxomlinskidir. Sadə, lakin elmə əsaslanan bu fikir, keçən əsrin ortalarında deyilməsinə baxmayaraq, bu gün də öz əhəmiyyətini, aktuallığını itirməyib. Bu gün respublikamızda 300-ə yaxın uşaq musiqi və incəsənət məktəbləri mövcuddur və bu tədris ocaqlarında təhsil alanlar müəyyən dərəcədə musiqi sənətinin və incəsənətin inciləri ilə tanış olmaqla öz mədəni səviyyələrini artırırlar. Lakin onlar ümumtəhsil məktəblərində oxuyan şagirdlərin cüzi bir hissəsini təşkil edir və heç də respublikamızda olan uşaq və yeniyetmələrin hamısını əhatə etmirlər. Deyilə bilər ki, ümumtəhsil məktəblərimizdə musiqi və təsviri incəsənət fənləri tədris olunur. Bəli, elədir! Lakin necə tədris olunur? Həftədə bir saat "Musiqi", bir saat da "Təsviri incəsənət" fənləri böyüməkdə olan nəslin estetik mədəniyyətinin formalaşmasına, inkişafına nə dərəcədə təsir edə bilər?

1945-ci ildə Xirosima və Naqasaki adalarına atom bombaları atılandan sonra Yaponiya dövlətinin uşaqların estetik tərbiyə sistemi sahəsində qəbul etdiyi bir qərarı fakt kimi bir daha xatırlatmaq istəyirəm. Bəlkə də həmin atom bombaları başqa bir ölkələrə atılsaydı, həmin ölkələr uzun on illər özlərinə gələ bilməzdilər. Lakin bu hadisədən sonra Yaponiya hökuməti bağçalarda və ümumtəhsil məktəblərinin tədris planlarında "Musiqi" və "Təsviri incəsənət" fənlərinin hər birinə həftədə üç saat ayırmaq qərarına gəldi. Nə üçün? Ona görə ki, adı qeyd olunan dövlətin bu başbilənləri bazar iqtisadiyyatı sistemində yaşayan böyüməkdə olan nəsli gözəlliyi duya, ondan zövq ala, onu yarada bilən şəxsiyyətlər, gələcəyin fəhlələri, mühəndisləri, alimləri, sənətkarları kimi görmək istəyirdilər.

Yəni, bədii və estetik zövqü formalaşmış insanın istər fəhlə, istər mühəndis, alim, yaxud hansı sənət sahəsində çalışmasından asılı olmayaraq istehsal etdiyi, yaratdığı məhsul da gözəl və yüksək zövqlərə cavab verə biləcək bir səviyyədə olmalıdır. Baxın, 1945-ci ildə dövlət tərəfindən qəbul edilmiş yuxarıda adı çəkilən qərarın nəticəsi artıq neçə on illərdir ki, göz qabağındadır. Heç bir yeraltı sərvətləri olmayan Yaponiya iqtisadiyyatı bu gün Amerika Birləşmiş Ştatlarını da arxada qoyub. İntellektin isə incəsənət vasitəsilə daha asan inkişaf etdirilməsi artıq çoxdan pedaqoji və psixoloji elmlərə məlumdur. Deyirlər ki, varlı təbii sərvətlərə malik olan dövlətlərdə intellektual inkişaf, təbii sərvətləri olmayan dövlətlərdən geri qalır və həmin millətlər arasında elmi tərəqqiyə etinasızlıqla yanaşma və ümumiyyətlə, bu sahədə kütləvi tənbəllik özünü bütün dövrlərdə göstərir. Yenə Yaponiya təcrübəsinə qayıdaq. Heç bir təbii sərvəti olmadığı üçün bu millət yaşamaq uğrunda ağılla və məntiqlə mübarizə aparır. Ağlını, intellektini, məntiqini, fantaziyasını, işgüzarlığını inkişaf etdirməklə, bu xalq qabaqcıl, yüksək inkişaf etmiş dövlətlər sırasına çıxa bilib. Bu gün tez-tez respublikamızda təkrar olunan "İnsan kapitalı" ideyası çox gözəl ideyadır. Lakin bu söz olaraq qalmamalıdır. Təəssüflər olsun ki, bu ideya hələlik öz praktik həllini tam şəkildə tapa bilməmişdir.

Bu fikirləri heç bir yeraltı sərvəti, hətta içməli suyu olmayan İsrail dövləti haqqında da söyləyə bilərik. Bu ölkə elmi, mədəniyyəti, təhsili inkişaf etdirməklə dəniz suyunu içməli suya çevirməklə, şoran səhraları yüksək məhsul verən bağlara, tarlalara çevirməyi bacarıbdır.

Artıq ümumtəhsil məktəblərimiz üçün uzun illər gözlənilən keyfiyyətli "Musiqi", "Təsviri incəsənət" dərslikləri hazırlanıb və 2007-ci ilin sentyabrından onlar məktəblilərə pulsuz, dövlət hesabına verilir.

I-IX siniflər üçün nəhayət ki, keyfiyyətli "Musiqi" dərsliklərinin hazırlanması çox vacib və təqdir olunmalı haldır. Lakin "Musiqi" fənninin keyfiyyətli tədrisi üçün dərsliklərlə bərabər digər resurslar, yəni not müntəxəbatların, fonomüntəxəbatların, müasir elektron dərsliklərin, "Metodikanın" yaradılması artıq bu günün həlli vacib problemlərindəndir. Bu problemləri isə ağılla və elmi surətdə həll etmək lazımdır. Bu gün "Musiqi" dərsliklərinin yaradılmasına tanınmış musiqiçilər, alimlər, metodistlər qabaqcıl məktəb müəllimləri cəlb olunduğu üçün onun keyfiyyətli olması artıq faktdır. Lakin qeyd olunan digər vəsaitlərin olmaması bu fənnin lazımi səviyyədə tədrisinə maneçilik göstərir. Nədənsə, biz hər bir şeyi yarımçıq görürük. El arasında belə bir kəlam var: "Vay yarımçıq əlindən". Yarımçıq görülmüş iş görülməmiş bir işə bərabərdir.

Bir qədər "Musiqi" fənnini məktəblərimizdə tədris edən müəllimlər haqqında. Təəssüf olsun ki, bu sahədə də vəziyyət bir o qədər də ürəkaçan deyildir. Belə ki, fəaliyyət göstərən 5000-ə yaxın məktəblərimizin haradasa 20 faizində bu fənni mütəxəssislər tədris edirlər. Qalan 80 faiz məktəblərimizdə, xüsusən kənd rayonlarında bu fənn əlavə dərs yükü kimi başqa fənn müəllimlərinə tapşırılır. Kağızda bu fənn "tədris" olunur, əslində isə, "Musiqi" fənni demək olar ki, tədris olunmur. Biz kimi aldadırıq? Özümüzü, xalqımızı, yoxsa dövlətimizi?! Əgər fənni tədris edən mütəxəssis yoxdursa, onda ən yüksək keyfiyyətli dərslik, dərs vəsaitləri kimə lazımdır? Bu gün sayı-hesabı olmayan ali təhsil məktəblərində bu ixtisasın genişləndirilməsinə nəyə görə imkan verilmir? Nəyə görə bu sahədə olan kadr qıtlığını aradan qaldırmaq üçün universitetlərin tərkibində, Türkiyədə olduğu kimi, "Konservatoriya"lar açılmır? Bu gün 5000-ə yaxın orta ümumtəhsil məktəblərinə heç olmasa, haradasa 3000 musiqi müəllimi lazımdır. Bu sahədə isə respublikamızda çox az mütəxəssislər hazırlanır. Deyilən ixtisas üzrə respublikamızda aparılan qəbul planı ilə məktəblərimizi 100 ilə müəllim kadrları ilə təmin etmək mümkün ola bilər. Bəs, bu çatışmazlığı necə aradan qaldırmaq mümkündür?

İlk növbədə kənd rayonlarında olan pedaqoji təmayüllü ali və orta-ixtisas məktəblərində "Musiqi" müəllimi ixtisası verən fakültələrin yaradılması, Bakı Musiqi Akademiyasında musiqi-pedaqoji fakültəsinin, mövcud pedaqoji təmayüllü universitetlərdə bu ixtisasla əlaqədar fakültələrin yaradılması, yaxud qəbul planının artırılması problemin həllinə kömək edər. Təəssüflər olsun ki, Təhsil Nazirliyində bu gün musiqi təhsilinə (təsviri incəsənət fənninin təhsilinə də) nəzarət edən bir qurum, hətta bir mütəxəssis belə yoxdur. Ona görə də, Təhsil Nazirliyində "Musiqi" ("Təsviri incəsənət") fənnindən başqa bütün fənlərin problemləri sahəsində müəyyən dərəcədə işlər görülür. Bu gün "Musiqi", "Təsviri incəsənət" fənləri nazirlikdə yetim adamı xatırladır. "Musiqi", "Təsviri incəsənət" fənlərinə Təhsil Nazirliyində olan bu münasibət orta məktəblərdə hökm sürən ögey münasibətdə özünü göstərir. Halbuki Musiqi" və "Təsviri incəsənət" fənninin düzgün tədrisi digər dəqiq və humanitar fənlərin daha asan mənimsənilməsinə, bu biliklərin uzun müddət yadda qalmasına, şagirdlərin məntiqinin, fantaziyasının, yaradıcılıq qabiliyyətlərinin və şəxsiyyət kimi inkişafına səbəb ola bilər. Bu, artıq elmi surətdə təsdiq olunmuş bir faktdır və deyilənlər elmi axtarışların nəticələridir. D.B.Kabalevskinin belə bir fikri vardır: "Uşaqlarımız mədəni olarsa, bütün xalq mədəni olar".

Hər bir fənnin tədrisi xüsusi fundamental elmi axtarışların nəticələrinə əsaslanmalıdır. Təəssüflər olsun ki, son zamanlar musiqi pedaqogikası və metodikası sahəsində müəyyən dissertasiyalar hazırlanaraq müdafiə edilsə də, Azərbaycan pedaqoji elmində əvəzolunmaz işlər görmüş, görkəmli alimlər yetirmiş Azərbaycan Respublikasının Təhsil İnstitutunda "Musiqi təlimi və təsviri incəsənət" şöbəsinin olmaması bu sahədə kompleks nəzəri və tətbiqi tədqiqatların aparılmasına güclü şəkildə maneçilik törədir. Bir həqiqəti yaddan çıxarmaq olmaz ki, elmə əsaslanmayan tədris heç kimə lazım deyildir! O cümlədən incəsənətlə təmasda olmayan, ondan bəhrələnməyən dəqiq elmlərin tədrisinin keyfiyyətli olması haqqında müsbət fikir söyləmək olmaz. Dünya şöhrətli azərbaycanlı akademik, mərhum Xudu Məmmədovun dahiyanə bir fikrini diqqətinizə çatdırmaq istərdim: "Hər bir elmin zirvəsində mədəniyyət, mədəniyyətin zirvəsində elm durur". Necə də məntiqli və doğru fikirdir. Ümumtəhsil məktəblərində "Musiqi" fənninə həftədə bir saat ayrılması gülüncdür və bu fənnin qarşısında qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsinə imkan vermir. İncəsənət fənlərinin hər birinə həftədə, heç olmasa, iki saat ayrılmalıdır. Onda fənlərarası əlaqə prinsipindən, musiqinin imkanlarından istifadə edilməsilə riyaziyyat, fizika və ana dili fənlərinin qavranılmasını da asanlaşdırmaq mümkündür. Bu da tədqiqatların gəldiyi nəticədir.

Qeyd etmək lazımdır ki, vaxtilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (indi Azərbaycan Təhsil İnstitutu adlanır) təhsilimizin inkişafı üçün çox böyük işlər görmüşdür. Bu elmi-tədqiqat institutu respublikamız üçün yüksək dərəcəli alimlər yetişdirmiş və onların əksəriyyəti beynəlxalq səviyyədə tanınmış insanlar olmuşlar, respublikamıza beynəlxalq mükafatlar gətirmişlər. Bu gün də orada çox savadlı insanlar işləyirlər. Təəssüflər olsun ki, bu institut öz əvvəlki hörmətini demək olar ki, itirmişdir. Bunun səbəblərindən biri onun adı ilə bağlıdır. Son bir neçə ildə onun adının tez-tez dəyişdirilməsi və indiki halda "Azərbaycan Təhsil İnstitutu" adlandırılması nə dərəcədə düzgündür? Bu addan bu institutun nə işlə məşğul olması bəlli olmur. Məncə, institutun əvvəlki adı geri qaytarılmalıdır. Onda hamıya aydın olacaqdır ki, bu institut pedaqoji elmlər üzrə nəzəri və təcrübi tədqiqatlarla məşğul olan bir qurumdur. Gürcüstan Respublikası Azərbaycanın nefti, qazı, özlərinin alkoqollu içkiləri və sitrus meyvələri ilə dolanan bir ölkə olmasına baxmayaraq, orada "Elmi-Tədqiqat Pedaqogika İnstitutu", "Elmi-Tədqiqat Psixologiya İnstitutu", hətta "Pedaqoji Elmlər Akademiyası" kimi elmi qurumlar vardır. Bəs nəyə görə respublikamızda Gürcüstanda olan adı çəkilən elmi qurumlar olmasın?

Ümumtəhsil məktəblərində ödənişli "Musiqi və incəsənət kursları"nı açmaqla mədəniyyət sahəsində daha çox uşaqların iştirakına nail olmaq olar və bununla da incəsənətin kütləviliyinə müəyyən dərəcədə müsbət təsir göstərilər. Sovet dövründə dörd ildən bir "Məktəblilərin mahnı və rəqs bayramları" keçirilirdi. Bu bayramlarda yüz minlərlə şagird iştirak edirdi və yekun konsert Bakının mərkəzi stadionunda olurdu. Nədənsə bu gözəl ənənələr artıq yaddan çıxarılıb. Halbuki Baltikyanı ölkələrdə "Məktəblilərin mahnı və rəqs bayramları" hər il keçirilir. Bu bayramlar musiqi-estetik tərbiyəsinin kütləvi inkişafına, mədəniyyətin inkişafına böyük təsir göstərir.

Məktəblilərin kütləvi musiqi-estetik, mədəni inkişafında musiqi ilə əlaqədar müntəzəm televiziya verilişlərinin aparılmasının çox böyük əhəmiyyəti vardır. 1977-ci ildən 1992-ci ilə qədər düz 14 il Azərbaycan Dövlət Televiziyasında "Məktəblilərin Musiqi Klubu" adlı ayda iki dəfə efirə çıxan bir veriliş var idi. Qeyd etmək lazımdır ki, bu veriliş yarandıqdan bir qədər sonra bir neçə Moskva telekanallarında da buna bənzər verilişlər yaradılmışdı. Bu verilişlərdə şagirdlər ayda iki dəfə musiqi korifeyləri, alimlər, rəssamlar və digər məşhur şəxsiyyətlərlə canlı şəkildə görüşür və musiqi ilə ünsiyyətdə olurdular. F.Əmirov, Niyazi, Q.Qarayev, A.Məlikov, D.Kabalevski, F.Əlizadə, F.Bədəlbəyli, V.Mustafazadə və digər şəxsiyyətlər həmin verilişin qonaqları olmuşdular. Nədənsə, 1992-ci ildə veriliş ləğv olundu (Xalq cəbhəsi dövründə). Bu gün isə telekanalların əksəriyyətində tamaşaçılar ya xörəklərin necə bişirilməsinə, yaxud restoran müğənnilərinin villaları və xalqımızın mənəviyyatına, estetik-musiqi tərbiyəsinə mənfi təsir göstərən üzdəniraq "yaradıcılıqları" ilə tanış olmağa məcburdurlar. Bu cür üzdəniraq televerilişləri bütünlükdə xalqımızın zövqlərinin korlanmasına səbəb olur. Bəstəkarlarımızın və digər mədəniyyət xadimlərimizin yaradıcılığının xalqımızın, o cümlədən böyüməkdə olan nəslin diqqətinə çatdırılması sahəsində əksər telekanallar (dövlət, mədəniyyət və ictimai telekanallar istisna olmaqla) tərəfindən demək olar ki, heç bir iş görülmür.

Kütləvi musiqi mədəniyyətinin inkişafına məktəblərin filarmoniya konsertlərində, Opera və Balet, Musiqili Teatr və digər teatrların tamaşalarında müntəzəm iştirak etmələrinin çox böyük əhəmiyyəti vardır. Artıq neçə on illərdir ki, ümumtəhsil məktəbləri adları çəkilən mədəniyyət ocaqlarının ünvanlarını demək olar ki, yaddan çıxarmışlar. Əgər ümumtəhsil məktəbləri, heç olmazsa, ildə iki dəfə bu mədəniyyət ocaqlarının konsertlərində, tamaşalarında iştirak edərlərsə, görün mədəniyyətimizin inkişafına necə böyük təkan verirlər?!

Bir faktı da qeyd etmək istərdim. Bu yaxınlarda M.F.Axundov adına Opera və Balet Teatrının afişalar yerləşdirilən qapısının qarşısından keçirdim.

Afişalara diqqət yetirəndə gördüm ki, 1 həftəlik repertuarda Azərbaycan bəstəkarlarından cəmi bir nəfərin - Ə.Bədəlbəylinin "Qız qalası" baletinin adı olan afişa vardır. Həftənin qalan altı günündə rus və Avropa bəstəkarlarının əsərləri tamaşa ediləcəyi göstərilirdi. Doğrudur, son zamanlar bəstəkarlarımız opera və balet əsərləri yazmağa o qədər də maraq göstərmirlər. Ona görə ki, bu janrda olan əsərləri də teatr üçün almaq istəyənlər yoxdur.

Bunun üçün yaxşı olar ki, milyonçu iş adamlarımız bu işdə dövlətimizə kömək etsinlər. Yəni respublikamız üçün yeni-yeni musiqili səhnə əsərlərinin yaranması, onların tamaşaya qoyulması üçün maliyyə dəstəyi göstərsinlər, dövlət isə bir sıra xarici ölkələrdə olduğu kimi, onları bunun müqabilində müəyyən qədər vergilərdən azad etsin.

Digər tərəfdən, Sovetlər dövründə Azərbaycan Dövlət Televiziyası və Radio Komitəsində ayda bir dəfə "Bədii Şura" yığılardı və bəstəkarlarımızın ən yaxşı mahnılarını satın alardılar, hətta qəbul edilmiş mahnıların orkestrləşdirilməsi də dövlət tərəfindən həyata keçirilərdi. Ona görə də XX əsrin 50-80-ci illərində bəstəkarlarımız tərəfindən çoxlu sayda gözəl və keyfiyyətli mahnılar da yaranmışdı. O mahnılar bu gün də dillər əzbəri olaraq qalmaqdadır. Yaxşı olar ki, bu ənənə bu gün də davam etdirilsin.

Qeyd etmək yerinə düşər ki, neçə on illərdir ki, bəstəkarlarımız nə uşaqlar üçün, nə də böyüklər üçün mahnılar yazmırlar. Onun nəticəsidir ki, telekanallarımızda bayağı mahnılar baş alıb gedir.

Mən bir daha 1948-ci ildə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Allen Dallesin hazırladığı və senatda təsdiqlənmiş doktrinanın məzmununu xalqımızın diqqətinə çatdırmaq istərdim: SSRİ-ni müharibəsiz dağıtmaq və onun tərkibindəki respublikalarda savadsızlığı, mədəniyyətsizliyi, elmsizliyi, əxlaqsızlığı inkişaf etdirmək. Onlar bu doktrinanın I hissəsini həyata keçirə bildilər. Həmin doktrinanın II hissəsini isə hazırda bir sıra xarici ölkə kəşfiyyat idarələrinin agentləri keçmiş postsovet respublikalarında həyata keçirtmək üçün dəridən-qabıqdan çıxırlar. Təəssüflər olsun ki, bir sıra məmurlar da vəzifə səlahiyyətlərindən istifadə edərək, özləri bəlkə də bilmədən, bu planın tətbiqinə kömək edirlər.

Bu gün biz Azərbaycan pedaqoqları, alimləri, sənətkarları, bütövlükdə ziyalılar, məmurlar var gücümüzlə çalışmalıyıq ki, qeyd olunan doktrinanın ikinci hissəsinin tələbləri həyata keçə bilməsin.

Məqaləni müəllimim, dahi bəstəkar və pedaqoq, akademik D.B.Kabalevskinin sözlərilə bitirmək istəyirəm: "Musiqi - estetik tərbiyəsi ilə məşğul olmaq çox asandır, lakin buna bütün ömrü həsr etmək lazımdır".

**Oqtay RƏCƏBOV,**
**bəstəkar, "Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyası"nın həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim, Prezidentin fərdi təqaüdçüsü.**

**P.S.** *Hesab edirik ki, gələcəkdə 12 illik təhsilə keçən ümumtəhsil məktəblərimizdə musiqi, təsviri incəsənət və texnologiya fənləri Baltikyanı ölkələrdə, Yaponiya, İsrail və Almaniyada olduğu kimi I sinifdən XII sinif daxil olmaqla tədris olunmalı və bu fənlərə həftədə 2 saat ayrılmalıdır.*

# Xocalı soyqırımı ən dəhşətli kütləvi terrordur

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etmişlər. Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunmuş, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdür. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olmuşlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edilmişdir.**

Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələyir, onlara amansız divan tutmuşdular. Beləliklə, soyuq, qarlı fevral gecəsində nə qədər qız-gəlin əsir düşdü, girov götürüldü. Nə qədər insan erməni silahından yayınıb meşələrə, dağlara qaçsalar da onların çoxu soyuqdan, şaxtadan məhv oldular...

Bəşəriyyətə, insanlığa qarşı törədilmiş Xocalı soyqırımı öz vəhşiliyinə və qəddarlığına görə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi tarixə düşmüşdür. Əslində, Xocalı faciəsi bir günün, bir gecənin hadisəsi deyildi. Ermənilər bu faciəyə Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra hazırlıq görmüşdülər. Hələ 1988-ci ildə hadisələr başlananda vəziyyəti gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkən erməni siyasətçiləri və onların himayədarları vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun illərdən bəri hazırladıqları plan üzrə Xankəndidə və Yerevanda tətillər keçirilirdi. Lakin baş verən sonrakı hadisələr DQMV-nin iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası olduğunu göstərdi. Məhz elə həmin vaxtdan da Xocalı qətliamının əsası qoyulurdu.

Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazi kimi ermənilərin işğalçılıq planlarına mane olurdu. Çünki Xocalı Xankəndidən 12 km şimal-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Şəhərin əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi idi. Buna görə Ermənistan silahlı qüvvələrinin əsas məqsədi Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək və Xocalıda yerləşən aeroportu ələ keçirmək idi.

Bununla yanaşı, xüsusi qəddarlıqla həyata keçirilən Xocalı soyqırımının törədilməsi zamanı ermənilər Azərbaycanın bu qədim yaşayış məskəninin yer üzündən silinməsini qarşıya məqsəd kimi qoymuşdular. Burada qədim tarixi abidələr müasir dövrə qədər qalmaqda idi. Xocalı əhalisini vəhşicəsinə qırarkən, soyqırımın ən iyrənc mərhələsi olan izi itirmək kimi mənfur hərəkətlərə də əl atmış və Azərbaycan xalqı, eləcə də bəşəriyyət üçün nadir abidələr nümunəsi olan Xocalı abidələrini də dağıtmışlar.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi təcavüzü dünyanın yeni münaqişələr tarixinə beynəlxalq hüquqi normaların ən çox və kobudcasına pozulduğu faktlardan biri kimi daxil olub. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirir. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidi. Bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli Xocalı faciəsi yalnız Xatın, Lidisa, Oradur, Sonqmi soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaylarla müqayisə oluna bilər. Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra aldı, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan edən ulu öndər hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zərurliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Bununla da bədxax erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, faciənin soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyətə start verilmişdir. "Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir" - deyən ulu öndərimizin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etdi. BMT-dən, dünya dövlətlərindən bu qətliamın gerçək mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyətdən erməni terrorizminə qarşı təsirli tədbirlər görülməsi tələb olundu. Qəbul edilmiş qərara əsasən, 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da Xocalı Soyqırımı Günü kimi anılır.

Ümummilli liderimizin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı sərəncamla hər il fevral ayının 26-sı saat 17:00-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Azərbaycan xalqı torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəmanların, Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, onları ehtiramla yad edir.

Ermənistanın bu cinayətkar siyasətinin davamlılığını sübut edən faktlardan biri də budur ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və nəhayət, 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırımı və etnik təmizləmələrə məruz qalmışdır.

Azərbaycan xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır. Xocalı qətliamı erməni faşistlərinin insan təfəkkürünə sığmayan vəhşiliklərinin qanlı izidir. Çox təəssüf ki, xalqımızın Xocalı kədəri, hüznü yaşadığı həmin vaxtda faciənin ağırlığı o zamankı Azərbaycan hakimiyyəti tərəfindən lazımi şəkildə qiymətləndirilmədi. O vaxtkı dövlət rəhbərliyini təmsil edən vəzifəli şəxslər qorxaqlıq və qətiyyətsizlik nümayiş etdirərək bu müdhiş cinayət barədə ilk günlərdə xalqa məlumat verməkdən belə çəkindilər. Sonralar - AXC-Müsavat iqtidarı dövründə də insanlıq əleyhinə yönələn cinayətə lazimi siyasi və hüquqi qiymətin verilməsi üçün heç bir tədbir görülmədi. Son illər Azərbaycanın haqlı mövqeyini bütün dünyaya əsaslı dəlillərlə nümayiş etdirən dövlətimizin başçısı İlham Əliyev işğal altında olan torpaqlarımızın azad edilməsi istiqamətində səmərəli fəaliyyəti ilə yanaşı, həm də dünya ictimaiyyətinin diqqətini erməni vandalizminə cəlb etməyə nail olur. "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" - deyən Prezidentimizin gərgin əməyinin nəticəsidir ki, hazırda dünyanın əksər dövlətləri Xocalı qətliamını əsl soyqırımı kimi tanıyır və qəbul edir. Ötən illərdə dövlət başçısının göstərişi ilə Xocalı şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bakıda, respublikamızın bir sıra bölgələrində, həmçinin xaricdəki diasporlarımızın maddi və mənəvi dəstəyi ilə dünyanın əksər ölkələrinin paytaxtlarında Xocalı şəhidlərinin xatirəsinə abidələr ucaldılmışdır. Bu isə ürəkləri daim Vətən eşqilə döyünən soydaşlarımızın öz yurddaşları olan Xocalı şəhidlərinin müqəddəs ruhuna hörmət və ehtiramlarının bariz nümunəsidir. Bu mənada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin azərbaycanlıların soyqırımının dünyada tanıdılmasına yönəlmiş tədbirlər həyata keçirməsi hər bir soydaşımız üçün nümunə olmalıdır. Hazırda bu soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində daim fəaliyyət göstərilmişdir. Bu baxımdan Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Belə ki, Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir. Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilir. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılır. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilir, eləcə də rəsm sərgiləri təşkil olunur. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada keçirilən mitinqlər, bir sıra ölkələrdə anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub. 2008-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsinin ildönümündə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası təsis edilmiş və 2009-cu ilin fevralından bu kampaniyaya start verilmişdir.

"Xocalıya ədalət!" beynəlxalq informasiya və təşviqat kampaniyasının əsas məqsədi dünya ictimaiyyətini Xocalı soyqırımı ilə əlaqədar məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Hazırda bu kampaniya bir çox ölkələrdə davamlı olaraq həyata keçirilir. "Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması, faciə zamanı zərərçəkmiş şəxslərə təzminat verilməsinə nail olunması, cinayətkarların məsuliyyətə cəlb olunması, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər aparır. Qeyd edək ki, "Xocalıya ədalət!" Beynəlxalq Kampaniyası İctimai Birliyi dövlət qurumları və ictimai təşkilatlar tərəfindən aparılan təbliğat-təşviqat işlərinin səmərəliliyinin artırılması və bu fəaliyyətin əlaqələndirilməsinin gücləndirilməsi məqsədilə dövlət qurumları və gənclər təşkilatlarında Xocalı soyqırımına həsr olunan təqdimatlar təşkil edir.

Yeri gəlmişkən, soyqırıma qiymət verilməsi siyasi aksiya olmaqla yanaşı, həm də hüquqi məsələdir. Bəli, Xocalı faciəsi bizim hər birimizin qan yaddaşına yazılmalıdır! Həm də təkcə Xocalı faciəsi yox. Ermənilər xalqımıza qarşı bəd əməllərini tarix boyu təkrarlamışlar. Onların ötən əsrin 1918-1920, 1937-1940, 1948-1953-cü illərində Bakıda, Şamaxıda, Zəngəzurda törətdikləri kütləvi qırğınlar buna misaldır. Biz tariximizin bu qara səhifələrini heç vaxt yaddan çıxarmamalıyıq. Düşmənin gələcək fitnə-fəsadlarının qarşısını almağa həmişə hazır olmalıyıq. Biz Xocalını, digər itkilərimizi başımız üzərinə qaldırıb elliklə düşmənin üstünə getməliyik. Bu bizim zəfər yürüşümüz olmalıdır! Beynəlxalq hüquqa görə soyqırımı sülh və insanlıq əleyhinə yönələn əməldir və ən ağır cinayət hesab edilir. Göstərilən faktlar işğalçı Ermənistanın təcavüzkar siyasətini ifşa edir. Ona görə də Azərbaycan dövləti Ermənistan Respublikasına qarşı BMT-nin beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir.

**Eldəniz ABDİYEV,**
**YAP Xətai rayon "Məişət Maye Qaz" QSC üzrə ilk partiya təşkilatının sədri.**




### BMT-nin QƏZZA ZOLAĞI İLƏ BAĞLI XƏBƏRDARLIĞI



Birləşmiş Millətlər Təşkilatı Qəzza zolağı ilə bağlı xəbərdarlıq edib. BMT-nin Yaxın Şərq Sülh Prosesi üzrə xüsusi koordinatoru Nikolay Mladenov qurumun Təhlükəsizlik Şurasında etdiyi çıxışında Qəzza zolağında artan gərginliyə diqqət çəkərək yeni qarşıdurmanın heç bir tərəfin xeyrinə olmayacağı və həm Fələstin, həm İsrail, həm də bölgədə dağıdıcı nəticələr doğuracağı ilə bağlı xəbərdarlıq edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Fələstin və İsrailə maksimum təmkinli davranmaları ilə bağlı çağırış edən Nikolay Mladenov deyib: "Qəzzada bir daha fəlakətlə nəticələnə bilcək təhlükəli bir gərginliklə qarşı-qarşıya qala bilərik. Son günlərdə baş verənlər müharibənin astanasına nə qədər yaxın olduğumuzu göstərir".

Eyni zamanda, Nikolay Mladenov Qəzzadan İsrailə raketlərin atılmamasının vacibliyini vurğulayaraq İsrail təhlükəsizlik qüvvələrinə təmkinli olmaları ilə bağlı çağırış edib.

Məlumata görə, Qəzza zolağından atılan raketin Təl-Əvivin şimalındakı Şaron bölgəsindəki bir evə düşməsi nəticəsində 7 nəfər yaralanıb. Bu hadisədən sonra İsrail rəhbərliyi Kerm-Əbu-Səlim və Beyt-Xanun sərhəd-keçid məntəqələrini bağlayıb.

Qeyd edək ki, ABŞ prezidenti Donald Tramp martın 25-də İsrailin Qolan yüksəklikləri üzərindəki suverenliyini rəsmən tanıyıb.

### ƏLCƏZAİRDƏ 102-ci MADDƏNİN TƏTBİQİ TƏLƏB EDİLİB



Əlcəzairin müdafiə nazirinin müavini Əhməd Kayid Saleh prezident səlahiyyətlərinin tənzimlənməsini nəzərdə tutan Konstitusiyanın 102-ci maddəsinin tətbiq olunmasını tələb edib. Bu barədə "TRT" məlumat yayıb.

Əlcəzairin rəsmi telekanalında yayılan xəbərə görə, Əhməd Kayid Saleh ölkənin cənub sektorundakı hərbi hissələrdən birinə səfəri zamanı deyib: "Ölkənin böhrandan çıxması üçün həll yolu tapmalıyıq. Əlcəzair xalqının qanuni tələblərinə cavab verilməlidir. Məsələnin həlli də konstitusiya maddələrinə hörmət və dövlət hakimiyyətinin davam etdirilməsidir".

Məlumata görə, Əlcəzair Konstitusiyasının 102-ci maddəsinə görə, prezidentin istefası səlahiyyətlərini yerinə yetirməkdə maneəylə qarşılaşması, ölüm və ya xəstəliklə bağlı ola bilər. Bu zaman parlamentin sədri prezidentin vəzifəsini 90 günlüyə əvəz edir və bu müddətdə seçkilərin keçirilməsi nəzərdə tutulur. Bundan başqa, sözügedən maddəyə görə, müvəqqəti olaraq prezident səlahiyyətlərini icra edən şəxs seçkilərdə namizəd ola bilməz.

Xatırladaq ki, Əlcəzairdə aprelin 18-də prezident seçkilərinin keçirilməsi planlaşdırılırdı. Lakin prezident Əbdüləziz Buteflika martın 11-də gözlənilməz qərarla seçkiləri təxirə salaraq namizədliyini geri götürdü və hökumətdə geniş dəyişikliklər ediləcəyini bəyan etdi.

Qeyd edək ki, 1999-cu ildə hakimiyyətə gələn və dörd müddət ərzində prezident olan 82 yaşlı Əbdüləziz Buteflikanın səhhətindəki problemlərə baxmayaraq, bir daha namizəd olması ölkədə uzun müddət ərzində etirazlara səbəb olmuşdu.

### NATO-nun BAŞ KATİBİ YUQOSLAVİYANIN BOMBALANMASINI QANUNİ ADLANDIRIB




"NATO-nun Yuqoslaviya İttifaq Respublikasına 1999-cu ildə endirdiyi hava zərbələri qanuni və haqlı idi". "Report" agentliyinin verdiyi xəbərə görə, bu barədə NATO-nun baş katibi Yens Stoltenberq Serbiyanın "Tanjug" agentliyinə müsahibəsində bildirib.

Baş katib qeyd edib ki, bombardmanlar ozamankı Yuqoslaviya xalqına qarşı yönəldilməmişdi və ittifaqın rolu mülki əhalinin müdafiəsi idi.

Yens Stoltenberq deyib: "Bu böhranı nəzərə alaraq, NATO tərəfindən güc tətbiqi lazım idi və qanuni idi. Hədəf Kosovoda mülki əhaliyə qarşı hərbi aksiyaları və repressiyaları dayandırmaq və qaçqınların qayıdışını təmin etməkdən, habelə ora humanitar təşkilatların girişini təmin etməkdən ibarət idi".

NATO-nun baş katibi bildirib ki, alyansın qarşısına qoyulan vəzifələr yerinə yetirilib. Yens Stoltenberq həmçinin münaqişənin hər iki tərəfindən itki verən ailələrə başsağlığı verib.

Məlumat üçün qeyd edək ki, NATO Yuqoslaviyanı 1999-cu il martın 24-dən bombardman etməyə başlayıb, hərbi əməliyyatlar iyunun 10-da başa çatıb.

### YENİ ZELANDİYA TERRORÇUSUNA DƏSTƏK VERƏN TƏŞKİLAT MƏLUM OLDU



Avstriyanın baş naziri Sebastyan Kurz Yeni Zelandiya terrorçusu Brenton Tarrantın arxasındakı təşkilatın "İdentitaristlər Hərəkatı" olduğunu açıqlayıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Sebastyan Kurz Yeni Zelandiyada 51 nəfəri qətlə yetirən cinayətkar ilə Avstriyadakı "İdentitaristlər Hərəkatı" arasında maliyyə dəstəyi və əlaqənin olduğunu bəyan edib.

Baş nazir Avstriyada ekstremizmin heç bir növünə yer olmadığını vurğulayaraq, bunu yaymağa çalışan hər bir qrup və ya adamla qanunlar çərçivəsində mübarizə ediləcəyini bəyan edib.

Bununla yanaşı, Sebastyan Kurz Yeni Zelandiyada iki məscidə terror hücumu təşkil edən Avstraliya əsilli terrorçuyla ifrat sağçı "İdentitaristlər Hərəkatı"nın sözçüsü Martin Sellnerin əlaqəsinin ortaya çıxdığını bildirib.

Sözügedən əlaqənin ətraflı şəkildə araşdırılacağını qeyd edən baş nazir deyib: "İdentitaristlər Hərəkatı"nın bağlanılmasına dair daxili işlər və ədliyyə nazirləri ilə görüşdüm. Bu təşkilata qarşı hər iki nazirlik bütün imkanlarını səfərbər edəcək".

Məlumat üçün qeyd edək ki, ifrat sağçı "İdentitaristlər Hərəkatı" mühacir, miqrant və müsəlman əleyhinə hərəkat kimi tanınır. Avstriyada müsəlmanlara məxsus xeyli sayda qurum və təşkilata qarşı irqçi ifadələrin yer aldığı şüarlarla hücum edən təşkilat Avropanın miqrantlar və müsəlmanlardan təmizlənməsi düşüncəsini irəli sürür.

### XUAN QUAYDONUN AVTOMOBİLİNƏ HÜCUM EDİLİB



Venesuela parlamentinin sədri, özünü ölkənin müvəqqəti prezidenti elan edən Xuan Quaydonun avtomobilinə naməlum şəxslər hücum ediblər. "Report" agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, hadisəni əks etdirən video yerli telekanalda yayımlanıb.

Məlumata əsasən, hadisə martın 27-də gecə saatlarında ölkənin paytaxtı Karakasda baş verib. X.Quaydonun əyləşdiyi avtomobil işıqforda dayanan zaman bir nəfərin hücumuna məruz qalıb. Həmin şəxs avtomobilin qapısını açmağa çalışıb. Avtomobil yerindən tərpənəndən sonra küçədəki naməlum şəxslər ona hücuma keçərək, müxtəlif əşyalar atmağa başlayıblar.

Bununla yanaşı, ABŞ-ın dövlət katibi Mayk Pompeo hadisə ilə bağlı açıqlama yayıb. O qeyd edib ki, belə hədələyici, qorxutma aksiyaları Venesuelada qaçılmaz olan demokratiyanın bərpasını, sabitliyin bərqərar olmasını və xalqın çiçəklənməsini təxirə sala bilməz.

Qeyd edək ki, Venesuelada əksəriyyəti müxalifətdən ibarət olan parlamentin sədri Xuan Quaydo yanvar ayında özünü müvəqqəti dövlət başçısı elan edib və başda ABŞ olmaqla, bir sıra ölkələr onun bu qərarını dəstəkləyib.

### ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİNİN ƏSAS SƏBƏBİ AÇIQLANIB



Ürəyin əsas xəstəliyinin səbəbi müəyyən edilib. "Sputnik" informasiya agentliyinin məlumatına görə, Almaniya alimləri müəyyən ediblər ki, havanın çirklənməsi ürək-damar xəstəliklərinə daha çox səbəb olur.

Bununla yanaşı, insanlar xroniki aerozol təsirindən meydana gələn ürək-damar xəstəliklərindən ölürlər. Bu barədə "Medikal Ekspress" nəşrinin açıqlamasında qeyd edilib.

Verilən xəbərə görə, alimlər havanın ölüm həddinə səbəb olacaq dərəcədə çirklənməsinə müxtəlif mənbələrin təsirini modelləşdiriblər. Müəyyən olunub ki, 2015-ci ildə bütün Avropada ətraf mühitin çirklənməsi 790 min insanın ölümünə səbəb olub.

Eyni zamanda, bildirilir ki, bütün dünyada havanın çirklənməsindən ölənlərin sayı 8,8 milyona çatır. Alimlərin sözlərinə görə, bu səbəbdən insanlar siqaret çəkənlərə nisbətən daha çox ölür.

Alimlərin sözlərinə görə, orqanizmə zərərli olan əsas faktor havada diametri təxminən 2,5 mikron olan bərk hissəciklərin olmasıdır. Onlar ürək-damar və respirator xəstəliklərinin inkişafında əsas səbəblərdən biridir. ■

## Azercell Novruz bayramında ödənişsiz göz müayinələrini davam etdirib




"Azercell Telekom" MMC-nin təşəbbüsü ilə fəaliyyət göstərən "Mobil Göz Klinikası" şirkətin dəstəklədiyi önəmli sosial layihələrdən biridir. Klinika fəaliyyəti boyunca Bakı daxil olmaqla, Azərbaycanın əksər rayonlarında yerləşən uşaq və ahıllar evlərinə, məktəblərə səfər edərək, 7500-dən çox şəxsə tibbi yardım göstərib. Təkcə 2018-ci il ərzində "Mobil Göz Klinikası"nda 1368 nəfər müayinədən keçib.

Klinikanın növbəti səfəri bayram günlərində Neftçala "Uşaq və Gənclərin İnkişafına Dəstək" İctimai Birliyinin "Günərzi Qayğı Mərkəzi"nə təşkil olunub. Səfər çərçivəsində göz ağrılarından şikayətlənən 65 nəfərin müayinəsi aparılıb, ehtiyacı olanlara müalicə təyin olunub, optik eynəklər paylanılıb.

Qeyd edək ki, valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır. Bütün müayinə və müalicə tədbirləri Azercell-in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. ■

## Tibbi müayinə insanlarda xoş ovqat yaradır

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, səhiyyə islahatlarında da müsbət dəyişikliklər müşahidə olunur, yeni-yeni tibb ocaqları istifadəyə verilir, kadr potensialı mökəmlənir, elmin son nailiyyətlərindən səmərəli istifadə olunur. Bütün bunlar isə insanların sağlamlığının qorunmasında müstəsna rol oynayır.

2019-cu il fevralın 15-dən mayın 15-dək ölkə başçısının sərəncamı ilə ölkəmizdə əhalinin növbəti tibbi müayinəsinə başlanılmışdır. Vurğulamaq lazımdır ki, paytaxtın hər yerində olduğu kimi, Nəsimi rayonundakı 20 nömrəli şəhər poliklinikasında da tibbi müayinə uğurla həyata keçirilir, bu məqsədlə poliklinikada tədbirlər planı hazırlanmış, səyyari həkim briqadaları təşkil edilmişdir.

Biz üçmərtəbəli, müasir tipli poliklinikada olarkən səhər tezdən idi. Müayinə otaqlarında geniş növbə var idi. İnsanlarda yüksək əhval-ruhiyyə hiss olunurdu. Bir sözlə xidmət hamını razı salır, xüsusilə yaşlı nəslin nümayəndələri ağ xalatlılardan razılıqla danışırdılar.

**Poliklinikanın baş həkiminin müavini Tahirə Əfəndiyeva** ilə söhbət edərkən o, tibbi müayinə ilə bağlı bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

—Poliklinikamızda 343 nəfər tibb işçisi çalışır. Onlar insanların sağlamlığının qorunub saxlanılmasında müsəlləh əsgər kimi dayanmışlar. Kollektivimiz 80 min əhaliyə xidmət edir. Səhiyyə işçilərimiz çalışır ki, rayonun 5 mikrorayon ərazisində yaşayan əhali tibbi müayinədən faydalansın, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların sağlamlığı bərpa olunsun. Qısa vaxtda 21 mindən çox insan tibbi müayinədən keçirilmişdir.

Qeyd etmək lazımdır ki, səyyar həkim briqadasının üzvləri mütəmadi olaraq yataq şəraitində olan xəstələrlə evlərdə görüşür, onları müayinədən keçirir, sağlamlıqlarının qorunub saxlanılmasında lazımi tövsiyələr verirlər.

Tibbi müayinə zamanı biz ayrı-ayrı in-



sanlarla görüşüb, onların ürək sözlərini olduğu kimi qələmə aldıq.

**Sayad Quliyev (əmək veteranı, qaçqın):**

—Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində son illərdə əhalinin tibbi müayinədən keçirilməsi demək olar ki, hamını razı salır. İnsanlar 20 nömrəli şəhər poliklinikasına ümidlə gəlir, səhiyyə işçiləri hamıya doğma münasibət göstərir, xəstələr arasında geniş maarfləndirmə işləri aparılır. Yaşlı insan kimi ürəyimdəki müəyyən dəyişikliklər məni çox narahat edir. Ona görə də tibbi müayinədən keçməyi özümə borc bilirəm. Bu gün kardioqram müayinəsindən keçdim və müalicə üçün faydalı məsləhətlər aldım. İnanıram ki, səhhətimdə müayinədən sonra müsbət dəyişikliklər baş verəcəkdir.

**Nazilə İsmayılova (evdar qadın):**

—Son vaxtlarda şəkər xəstəliyindən və baş ağrılarından əziyyət çəkirəm. Ölkəmizdə tibbi müayinə keçirilməsi xəbərini eşidəndə tərəddüd etmədən ailə üzvlərimizin məsləhəti ilə poliklinikaya üz tutdum. Tibbi müayinələr məni razı saldı. Əhaliyə nümunəvi tibbi xidməti göstərildiyinə görə ölkə başçısı cənab İlham Əliyevə və 20 nömrəli poliklinikanın kollektivinə dərin razılığımı bildirir, onlara çox sağ olun deyirəm.

**Əfqan İbrahimov (Qarabağ müharibəsi veteranı):**

—Uzun illərdir ki, ayaqlarımdakı ağrılardan əziyyət şəkirəm. Buna görə də həkimlərlə əlaqə saxlayır, bir sıra müalicələr alıram. Başqa illərdə olduğu kimi, bu ilin fevralından başlanan tibbi müayinədən keçməyi özümə borc bildim. Poliklinikanın həkimləri məni yaxşı-yaxşı müayinədən keçirib, öz məsləhərtlərini verdilər. Şübhəsiz ki, səhhətimdə dönüş yaranacaq, ayaq ağrılarım azalacaqdır.

20 nömrəli poliklinikada tibbi müayinənin uğurla həyata keçirilməsində həkimlərdən Arzu Seyidli, Sevinc İsmayılova, tibb bacılarından Nailə Musayeva, Səbinə Əliyeva və başqalarının yaxşı işləri qeyd olunmalıdır.

**Qədir ASLAN,**
**"Respublika".**

TƏKRAR

Azərbaycan Milli Elmlər Akademiyası Respublika Seysmoloji Xidmət Mərkəzi açıq tender elan edir

Tender 2 (iki) LOT üzrə aparılır:
Lot-1. Cari təmir
Lot-2. Avadanlığın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

İştirak haqqı:
Hər Lot üzrə — 100 (yüz) manat
DXA
Kod: 210005
VÖEN: 1401555071
M/h: AZ85NABZ01365010000000003003944
S.W.İ.F.T. CTREAZ22
Adı: AMEA RSXM
H/h: AZ34CTRE00000000000004138305
VÖEN: 1700434611
Büdcə səviyyəsinin kodu: 1
Büdcə təsnifat kodu: 4138305
Maddə 142319

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanətini is qrafiki istisna olmaqla) 29 aprel 2019-cu il saat 17:00-a qədər, tender təklif və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 7 may 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 8 may 2019-cu il saat 11:00-da açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. Ünvan: Bakı şəhəri, Səbail rayonu, R.Rəfibəyli küç. 9. Telefon: 012-492-50-70. Faks: 012-492-50-70

Tender Komissiyası.

# “AzSığorta” ASC-nin 2018-ci il üçün maliyyə hesabatı

Forma № 1S

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
5 dekabr 2008-ci il
İ-125 №-li əmri ilə təsdiq edilmişdir.

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: _AZSIĞORTA ASC

Hesabat dövrü 01.01.2018-31.12.2018

*manatla*

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I.UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 1 345 229,46 | 875 698,44 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | 0,00 |
| **Daşınmaz əmlaka investisiyalar** | 0,00 | 0,00 |
| **Qeyri-maddi aktivlər** | 697 203,69 | 680 755,30 |
| **Təxirə salınmış vergi aktivləri** | 0,00 | 0,00 |
| **Uzunmüddətli debitor borcları** | 0,00 | 0,00 |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **4 999 801,17** | **4 536 167,31** |
| dövlət qiymətli kağızları | 4 999 801,17 | 4 536 167,31 |
| qeyri-dövlət qiymətli kağızları | | 0,00 |
| sair maliyyə aktivləri | | 0,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair aktivlər** | 400 000,00 | 400 000,00 |
| *Cəmi uzunmüddətli aktivlər* | 7 442 234,32 | **6 492 621,05** |
| II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| **Ehtiyatlar** | 0,00 | 0,00 |
| **Debitor borcları:** | 7 341 152,66 | **6 301 662,80** |
| birbaşa sığorta üzrə | 4 543 595,50 | 4 913 060,68 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | 353 210,17 | **328 508,63** |
| - təkrarsığortaçı üzrə | 226 471,06 | 106 306,13 |
| - təkrarsığortalı üzrə | 126 739,11 | 222 202,50 |
| asılı təşkilatlar üzrə | | 0,00 |
| büdcə üzrə | 2 437 022,20 | 1 048 576,65 |
| iddia tələbləri üzrə | | 0,00 |
| işçi heyəti üzrə | 4 983,70 | 790,00 |
| sığortalılara verilən borclar üzrə | | 0,00 |
| sair debitorlar | 2 341,09 | 10 726,84 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 18 048 291,79 | **20 524 103,11** |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | 2 047 234,12 | 2 092 342,79 |
| valyuta hesabı | 647 749,35 | 1 621 174,57 |
| depozit hesablar | 15 200 600,00 | 16 600 000,00 |
| sair pul vəsaitləri | 152 708,32 | 210 585,75 |
| **Qısamüddətli maliyyə aktivləri:** | 18 656 135,24 | **17 098 113,69** |
| dövlət qiymətli kağızları | 15 255 935,24 | 16 998 113,69 |
| qeyri-dövlət qiymətli kağızları | 3 400 200,00 | 100 000,00 |
| sair maliyyə aktivləri | | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 8 509 243,14 | **7 391 937,24** |
| həyat sığortası sahəsi üzrə | | 0,00 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 8 509 243,14 | 7 391 937,24 |
| **Sair qısamüddətli aktivlər:** | 313 958,60 | **399 022,17** |
| gələcək hesabat dövrlərinin xərcləri | 69 439,91 | 161 098,76 |
| verilmiş avanslar | 244 518,69 | 236 720,25 |
| təhtəl hesablar | 0,00 | 1 203,16 |
| **Sair aktivlər** | **698 702,87** | **2 522 977,46** |
| *Cəmi qısamüddətli aktivlər* | **53 567 484,30** | **54 237 816,47** |
| **CƏMİ AKTİVLƏR** | **61 009 718,62** | **60 730 437,52** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| I. KAPİTAL | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 20 300 000,00 | 20 300 000,00 |
| **Emissiya gəliri** | 0,00 | 0,00 |
| **Geri alınmış kapital (səhmlər)** | 0,00 | 0,00 |
| **Kapital ehtiyatları:** | 0,00 | 0,00 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0,00 | 0,00 |
| digər kapital ehtiyatları | | 0,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 9 583 305,14 | **14 100 751,83** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -3 064 666,38 | 4 406 335,49 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | 0,00 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 12 647 971,52 | 9 583 305,14 |
| Elan edilmiş dividendlər | | 111 111,20 |
| *Cəmi kapital* | **29 883 305,14** | **34 400 751,83** |
| II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Sığorta ehtiyatları:** | 27 804 911,65 | **21 965 360,81** |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 27 804 911,65 | 21 965 360,81 |
| **Qarşısıalınma tədbirləri fondu** | **1 178 426,14** | 1 309 217,99 |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | 0,00 |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | 0,00 |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | 0,00 | 0,00 |
| **Kreditor borcları :** | **0,00** | **0,00** |
| əməyin ödənilməsi üzrə | | 0,00 |
| büdcə üzrə | | 0,00 |
| sosial sığorta və təminat üzrə | | 0,00 |
| digər məcburi ödənişlər üzrə | | 0,00 |
| asılı təşkilatlar üzrə | | 0,00 |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | | 0,00 |
| alınmış avanslar | | 0,00 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **1 898 768,28** | **2 434 751,26** |
| təkrarsığortaçı üzrə | 1 898 768,28 | 2 431 872,26 |
| təkrarsığortalı üzrə | 0,00 | 2 879,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | **0,00** | **0,00** |
| *Cəmi uzunmüddətli öhdəliklər* | **30 882 106,07** | **25 709 330,06** |
| III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0,00 | 0,00 |
| **Kreditor borcları:** | **222 162,96** | **582 440,05** |
| əməyin ödənilməsi üzrə | 0,00 | 1 553,31 |
| büdcə üzrə | 0,00 | 12 281,53 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 73 370,82 | 60 804,64 |
| asılı təşkilatlar üzrə | | 0,00 |
| sair kreditorlar | 148 792,14 | 507 800,57 |
| **Sair qısamüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | **22 144,45** | **37 915,58** |
| *Cəmi qısamüddətli öhdəliklər* | **244 307,41** | **620 355,63** |
| *CƏMİ ÖHDƏLİKLƏR* | **31 126 413,48** | **26 329 685,69** |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | **61 009 718,62** | **60 730 437,52** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

Forma № 2S

Azərbaycan Respublikasının
Maliyyə Nazirliyinin
5 dekabr 2008-ci il
İ- 125 №-li əmri ilə təsdiq edilmişdir.

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) və ya sığorta brokerinin adı: AZSIĞORTA ASC

Hesabat dövrü 01.01.2018-31.12.2018

*ilin əvvəlindən artan yekunla*

*manatla*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **21 146 267,80** |
| birbaşa sığorta üzrə sığorta haqları | 19 472 254,64 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 538 652,49 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 934 017,88 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 201 342,79 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **4 722 244,94** |
| **İnvestisiya gəlirləri üzrə** | **3 987 477,39** |
| **Subroqasiya gəlirləri** | **102 258,14** |
| **Sair gəlirlər** | **93 688,15** |
| CƏMİ GƏLİRLƏR | 30 051 936,42 |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **12 926 439,76** |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 8 095 729,88 |
| qaytarılan sığorta haqları üzrə | 61 825,61 |
| tənzimləmə xərcləri | 255 686,47 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 4 099 147,22 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 130 791,85 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 283 258,73 |
| **İşlərin aparılması xərcləri** | **10 765 989,85** |
| **Sair xərclər** | **941 652,06** |
| CƏMİ XƏRCLƏR | 24 634 081,67 |
| **Maliyyə mənfəəti (zərəri)** | **5 417 854,75** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **5 417 854,75** |
| **Mənfəət vergisi** | **1 011 519,26** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **4 406 335,49** |

## AUDİTOR RƏYİ
## AUDİTOR OPİNİON
## SERİYA AK-09

**“AzSığorta” ASC-nin Səhmdarına:**

**VÖEN: 1301158021**

**Rəy**

Biz “AzSığorta” ASC-nin (bundan sonra “Cəmiyyət”) 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatından, məcmu gəlirlər haqqında hesabatından, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutlarımızı rəyimizi əsaslandırmaq üçün yetəri və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə ncavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və münasibət uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan salahiyyətli şəxslər maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz edilmiş maliyyə hesabatlarında bir tanı kimi, dələduzluq və ya səhflər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir. Lakin o BAS-lara uyğun olaraq aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

AK 09
29 mart 20419-cu il
Bakı, Azərbaycan Respublikası
“Analitik-Audit Konsaltinq”
MMC-nin direktoru Qurbanov A.

TƏKRAR

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Açıq Tender Elan Edir

Tender 1 (bir) lot üzrə keçirilir:

Lot-1. Dəmirdən relslər üzərində hərəkət edən elektron mobil stellaj və inventarların satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Ünvan: Nəsimi rayonu, Azadlıq pr. 20
Lot üzrə iştirak haqqı: 500 (beş yüz) manat
Əlaqələndirici şəxs: Quliyev K.
Telefon: (012) 598-45-05

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Kapital Bank ASC 28 May filialı
Kod 200123
VÖEN 9900003611
M/H AZ37NABZ01350100000000001944
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
H/H AZ76AIIB38060029441210456112
VÖEN 9900003611
SWİFT BİK AİİBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

—tenderdə iştirak etmək üçün ərizə;
—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;
—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;
—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyasının vacibliyi.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 26 aprel 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 6 may 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 7 may 2019-cu il tarixdə, saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 3 (üç) lot üzrə keçirilir:**
**Lot 1** - Dəftərxana kağızları
**Lot 2** - Ofis ləvazimatları
**Lot 3** - Növbə aparatları üçün termal tipli lentalar.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ak. Həsən Əliyev pr. 36 (əlaqələndirici şəxs: Səfərov Kamal Səfər oğlu, telefon: +99412 4447444 (daxili 2453)) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 800,0 manat**
**Lot 2 - 800,0 manat**
**Lot 3 - 800,0 manat**

*Hesab: AZ20CTRE00000000000004878570*
*VÖEN: 1701393691*
*Bank: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T: CTREAZ 22*
*Büdcə təsnifatı: 142340*
*Büdcə səviyyəsi: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır)*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır)*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları*
*10. Digər sənədlər: İddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanları haqqında rəsmi məlumatı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07.05.2019-cu il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 20.05.2019-cu il saat 17:00-a qədər Ak. Həsən Əliyev pr. 36 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 21.05.2019-cu il saat 11:00 tarixində Ak. Həsən Əliyev pr. 36 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

TƏKRAR

## NƏRİMANOV RAYON MƏNZİL KOMMUNAL TƏSƏRRÜFAT BİRLİYİ

## AÇIQ TENDER ELAN EDİR

**Tender 4 (dörd) lot üzrə keçirilir:**
**LOT-1.** Təsərrüfat mallarının alınması
**LOT-2.** Xüsusi geyimlərin alınması
**LOT-3.** Asfalt örtüyünün təmir işləri
**LOT-4.** Mənzil fondunun əsaslı təmiri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri Nərimanov rayonu Dəmirçizadə küçəsi 22**
**Hər Lot üzrə iştirak haqqı: 200 AZN**
**Əlaqələndirici şəxs: Cahangirov Telman**
**Telefon: 055-719-81-30**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*VÖEN: 1500376341*
*Hesab: AZ17İBAZ38060019449784231206*
*Adı: ABB Nərimanov filialı*
*Kodu: 805250*
*VÖEN: 9900001881*
*Müxbir hesab:*
*AZ03NABZ01350100000000002944*
*S.W.I.F.T. İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyasının vacibliyi.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 29 aprel 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 7 may 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 8 may 2019-cu il tarixdə, saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## “Elektron Hökumətin İnkişafı Mərkəzi” Publik Hüquqi Şəxsi

## BİLDİRİŞ

“Elektron Hökumətin İnkişafı Mərkəzi” Publik Hüquqi Şəxsi “12 ay ərzində taksi xidməti”nin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 444 74 44 (daxili 3184) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 05.04.2019-cu il saat 17:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nərimanov rayonu, Atatürk pr. 89.*

Bağlar Təsərrüfatının İnkişafı və İstismarı Birliyi tərəfindən Zamanov Akif Qafur oğlunun adına 10 yanvar 2007-ci ildə verilən 7834 saylı Müqavilə itdiyi üçün etibarsız sayılır. Ünvan: Bakı şəhəri, Sabunçu r-nu, Nardaran qəsəbəsi, 463 nömrəli bağ.

Quluzadə İlqar Qurban oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Çıxarış itdiyi üçün etibarsız sayılır. Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, 4 mkr. Əli İsgəndərov-7, mənzil-24.

Beyləqan şəhər sakini Məmmədov Nazim Məmməd oğluna məxsus Beyləqan şəhəri, Rövşən Axundov küçəsi, ev 52 ünvanında yerləşən fərdi yaşayış evinə mülkiyyət hüququna dair verilmiş MH seriyalı 0003936 nömrəli çıxarış və texniki pasport (inventar 1709, reyestr 607013002057-10301, həmçinin Beyləqan şəhərində yerləşən 599,47 kv.m. həyətyanı sahənin A seriyalı, 294003 nömrəli, 06.10.2010-cu il tarixli “Torpaq sahəsinin planı və ölçüsü” sənədi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**ABŞ-dan Subxan Axundzadə, uşaqları Rəna xanım, Adil Maqsud Qasımova, Rəhimə, Firudinə, Rəsulovlar ailəsinə, əzizləri**
**NURƏDDİN RƏSULOVUN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Fransadan Leyla Ələkbərova babası Maqsud Qasımova, Rəhimə, Firudin əmilərinə, Rəsulovlar ailəsinə, əzizləri**
**NURƏDDİN RƏSULOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidmətinin kollektivi iş yoldaşları Yaqub Cəfərova, atası**
**MƏMMƏDƏLİNİN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** **0240**
**Tiraj** **4292**
**Sifariş** **023**
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Əli SADIQOV**

● **Çapa imzalanmışdır**
**30.03.2019**